

## İpoteka kreditlərinə vətəndaşların əlçatanlığı

7

SƏS

№ 088 (6529) 20 may 2022-ci il. Qiyməti 60 qəpik

# Azərbaycan - Litva

## münasibətləri: Beynəlxalq ZİRVƏYƏ DOĞRU



3



# Qərb Ermənistanın

## Azərbaycana qarşı siyasətinə aşkar dəstək göstərir

Azərbaycan isə səbrlə, təmkinlə prosesləri izləyir və doğru yerdə, doğru zamanda öz nəticəsini müvafiq qərarlarını verməsi ilə hasil edir!

9



Yeni Azərbaycan Partiyasında böyük gənclər ordusu birləşib!

5



“Azərbaycan və Avropa İttifaqı arasında əlaqələr mövcuddur”

7



# KTMT ilə bağlı PUÇ OLAN ERMƏNİ ARZULARI

12



Ac qalanlar və ac saxlananlar-1 milyardla 1 milyardın fərqi

15

## Çernobılda zərər görən azərbaycanlılara əlillik müddətsiz təyin olunacaq



9

## “Ayntraxt” UEFA Avropa Liqasının qalibi oldu




16

# İşğaldan azad edilmiş ərazilərdə Türkiyə ilə kənd təsərrüfatı sahəsində sıx əməkdaşlıq həyata keçirilir

*Prezident İlham Əliyev Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Prezident İlham Əliyev mayın 19-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Vahid Kirişçi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş edib. Söhbət zamanı Prezident İlham Əliyevin bir neçə gün əvvəl Türkiyəyə səfəri məmnunluqla xatırlanıb və bu səfərin əlaqələrimizin inkişafında rolu qeyd edilib.

Prezident İlham Əliyev Vahid Kirişçini Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əməkdaşlığımızın gündəliyində kənd təsərrüfatının mühüm yer tutduğu qeyd olunub.

Prezident İlham Əliyev ermənilər tərəfindən işğal dövründə ərazilərimizdə kənd təsərrüfatı ilə bağlı hər şeyin dağıdıldığını qeyd edib və azad olunmuş torpaqlarımızda digər sahələrlə yanaşı, kənd təsərrüfatı ilə də bağlı genişmiqyaslı işlərin planlaşdırıldığını bildirib. Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə Türkiyə ilə kənd təsərrüfatı sahəsində sıx əməkdaşlıq və birgə fəaliyyətin həyata keçirildiyi məmnunluqla vurğulanıb.

Söhbət zamanı Bakıda keçirilən "Caspian Agro 2022" - Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin əhəmiyyəti və Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin başçılığı ilə nümayəndə heyətinin bu sərgidə iştirakının önəmi qeyd edilib, Türkiyə şirkətlərinin sərgidə geniş təmsil olunduqları bildirilib. Sonda Vahid Kirişçinin ölkəmizə səfərinin əməkdaşlığımızın genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 510-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" 2000-ci il 23 dekabr tarixli 432 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Ş.M.Əliyevin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla Şahin Məhərrəm oğlu Əliyev Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru təyin edilib. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Ölkəmizdə siyasi plüralizmin, fikir azadlığının təmin olunması üçün mühüm işlər görülür

*Prezident Administrasiyasında Milli Cəbhə Partiyasının sədri ilə görüş keçirilib*

***Ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqunun davamı olaraq, mayın 19-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev ilə görüş keçirib.***



Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri Ədalət Vəliyev ölkəmizdə siyasi plüralizmin, fikir azadlığının təmin olunması, bu məqsədlə ictimai iştirakçılığın genişmiqyaslı tətbiqi və digər önəmli məsələlərlə bağlı görülən qanunvericilik və institusional tədbirlər çərçivəsində çoxpartiyalı sistemin inkişafına dövlət dəstəyinin təzahüründən söz açıb. Şöbə müdiri bu istiqamətdə son bir neçə ildə yeni partiyalarla birgə Milli Cəbhə Partiyasının da dövlət qeydiyyatından keçməsi və bugünkü legitim fəaliyyəti, Azərbaycan Milli Məclisində təmsilçiliyi haqqında fikirlərini bildirib.

Ədalət Vəliyev müxtəlif siyasi qüvvələrin təmsil olunduğu VI çağırış Milli Məclisin ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən köklü siyasi islahatlar çərçivəsində formalaşdığını, buradakı müxalifət partiyalarının nümayəndələrinin müstəqil Azərbaycanın parlament tarixində ilk dəfə olaraq həm Milli Məclisin rəhbərliyində, həm də komitə və komissiyaların rəhbərliyində təmsil olunduqlarını qeyd edib.

Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev ölkəmizdəki siyasi dialoq təşəbbüslərinin ilkin mərhələsində baş verən Vətən müharibəsi zamanı mütərəqqi qüvvələrin siyasi birliyinin və milli həmrəyliyinin şanlı Zəfərə və dövlətçiliyimizin möhkəmlənməsinə birbaşa xidmət etdiyini vurğulayıb, hazırda aparılan və gələcəkdə aparılacaq iqtidar-müxalifət dialoqunun davam etdirilməsinin zəruriliyini bildirib. Yeni siyasi plüralizm mühitinin daha da inkişafı üçün ölkədəki bütün partiyalarla konstruktiv əməkdaşlığın qurulması, xüsusən partiyaların dövlət qeydiyyatına alınması, qurultayların keçirilməsi, hesabatların Mərkəzi Seçki Komissiyasına vaxtında və müəyyən edilmiş qaydada təqdim olunması, azad və demokratik mühitin formalaşması çərçivəsində kütləvi informasiya vasitələrinə məhdudiyyətsiz çıxış imkanlarının yaradılması, onların ofislə təmin olunması, partiyaların aktivləşməsi ölkədə aparılan siyasi dialoq təşəbbüslərinin ən vacib xarakterik xüsusiyyəti kimi dəyərləndirilib.

Prezident İlham Əliyevin "Dövlət təşəbbüslərinin davamlılığı, çoxpartiyalı sistemin formalaşması, islahatçı kursa sadiqlik, ölkədə siyasi fəaliyyət üçün münbit şəraitin dəstəklənməsi, demokratik ənənələrin inkişafı və s. sadaladığım strateji prioritetlərin icrası prosesində siyasi partiya və vətəndaş cəmiyyəti institutları fəal mövqe tutmalıdır", - tezisini xatırladan Ədalət Vəliyev bu fikirlərin əslində siyasi partiyalara və vətəndaş cəmiyyəti institutlarına çağırış olduğunu ifadə edib, xüsusən Milli Məclisdə təmsil olunan partiyaların bu çağırışa daha yaxından qoşulmasının əhəmiyyətini bildirib.

Sonda ölkəmizdə dərinləşməkdə olan siyasi dialoq mədəniyyəti prosesi, dövlət siyasətinin müxtəlif istiqamətləri ilə bağlı siyasi partiyaların təklif və təşəbbüsləri, işğaldan azad olunan torpaqlarımızda aparılan quruculuq işlərinin dövlətimizin iqtisadi qüdrətinin göstəricisi olması, bu işdə beynəlxalq qurumların Azərbaycana olan ikili münasibəti və ölkəmizə qarşı hələ də davam edən beynəlxalq ədalətsiz təhdidlərə müxalifət partiyalarının öz etirazlarını bildirməsinin önəmi və digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

# ABŞ mətbuatı Şuşanın son bir ildə keçdiyi inkişaf yolundan yazır

Baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında erməni işğalından azad olunduqdan sonrakı müddət ərzində Şuşada həyata keçirilən bərpa-quruculuq işlərindən bəhs edən "Müharibədən dağılmış Qarabağ bölgəsindəki Şuşa son bir ildə necə dəyişib?" sərlövhəli məqalə dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, siyasi şərhçi Reyçel Avraham müəllifi olduğu məqalədə bu günlərdə Azərbaycanın mədəniyyət paytaxtında keçirilən Beynəlxalq Qida Festivalında iştirak etmək üçün Şuşaya etdiyi səfər zamanı şahidi olduqlarını keçən il İsrailin sabiq rabitə, kibertəhlükəsizlik və peyk naziri Ayub Kara ilə Azərbaycana səfəri çərçivəsində Şuşada gördükləri ilə müqayisə edib və son bir il ərzində burada əldə olunmuş tərəqqini görməkdən keçirdiyi heyrət hissini gizlətməyib.




Müəllif, ilk növbədə, keçən il sözügedən ərazidə olarkən çoxlu çuxurları olan minalanmış torpaq yollarla getməli olduqları halda, bu il ən müasir standartlara cavab verən, 8 saatlıq məsafəni 5 saatlıq məsafəyə çevirən Zəfər yolu ilə getməkdən duyduğu məmnunluğu dilə gətirib. Qeyd olunub ki, ötən illə müqayisədə Füzulidən Şuşayadək olan yolda müvafiq infrastruktur, o cümlədən müxtəlif iaşə obyektləri inşa edilib, habelə tədbir iştirakçıları elektrik təchizatı olmayan ötənilki bərbad mehmanxananın əvəzinə beşulduzlu "Qarabağ" mehmanxanasında yerləşiblər, şəhərdə əksər binalar, o cümlədən bütün məscidlər rekonstruksiya olunub və ya yenidən tikilib. Məqalənin sonunda müəllif yaxın illər ərzində Şuşanın yenidən Azərbaycanın mədəniyyət paytaxtına çevriləcəyinə əminliyini ifadə edib.

Məqaləni ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür: https://foreignpolicyblogs.com/2022/05/16/how-has-shusha-in-the-war-torn-karabakh-region-transformed-over-the-past-year/

# Azərbaycan - Litva münasibətləri: Beynəlxalq ZİRVƏYƏ DOĞRU

***Yenə də Azərbaycan növbəti beynəlxalq tədbirə ev sahibliyi edir - mayın 18-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Litva V Qlobal Bakı Forumunun keçirilməsi bir daha sübut edir ki, bu gün Azərbaycan ilə Avrasiya bölgəsinin mühüm birliklərindən biri olan Avropa İttifaqı arasında əlaqələr uğurla inkişaf edir, tərəflər arasında konstruktiv dialoq mövcuddur və bu əlaqələr şaxələndirilmiş xarakter alıb. Tarixi əhəmiyyət daşıyan forumda "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusuna həsr olunan Forumun açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Beşinci Qlobal Bakı Forumunda 56 ölkədən 300 nəfərədək nümayəndə, o cümlədən müasir dünya siyasətinin yönləndirilməsində, bir çox regional proseslərin qiymətləndirilməsində mühüm rolu olan çox nüfuzlu dövlət xadimləri, siyasətçilər, elm adamları, siyasi ekspertlər iştirak edirlər.***

Forumun nüfuzlu qonaqları arasında Latviya prezidenti Raymonds Veyonis, Makedoniya prezidenti Georgi İvanov, Albaniya prezidenti Buyar Nişani, Monteneqro prezidenti Filip Vuyanoviç, Gürcüstan prezidenti Giorgi Marqvelaşvili, Səudiyyə Ərəbistanı Şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin sədri Turki əl-Faysal da var. İki gün davam edəcək Forum Azərbaycan həqiqətlərinin təbliğində və ölkəmizə yeni dostlar qazandırmaqda, lobbi quruculuğunda əhəmiyyətli rola malikdir. Qlobal Bakı Forumu Azərbaycanı tanıtmaq, ölkəmizlə bağlı həqiqətləri dünyaya çatdırmaq üçün çox mühüm və əlverişli platformadır.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Prezident İlham Əliyevə bu Foruma ev sahibliyi etdiyinə görə təşəkkürünü bildirərək Prezident İlham Əliyevin nitqini dinləmək şərəfindən məmnun olacaqlarını söyləyib.

Biznes forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda çıxış ediblər.

Qeyd edək ki, bu gün Azərbaycan ilə Avrasiya bölgəsinin mühüm birliklərindən biri olan Avropa İttifaqı arasında əlaqələr uğurla inkişaf edir, tərəflər arasında konstruktiv dialoq mövcuddur və bu əlaqələr şaxələndirilmiş xarakter alıb. Ölkəmizin Avropaya inteqrasiya yolunda, həmçinin, diplomatik fəaliyyətdə tarixi əhəmiyyət kəsb edən bu qurum Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsində, mövqeyinin möhkəmləndirilməsində böyük rol oynayır. Bu mənada təsadüfi deyildir ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr tərəfdaşlıq ruhu və qarşılıqlı dəstəyə əsaslanır. Elə Litva Respublikasının Prezidenti Gitanas Nausedanın ölkəmizə səfəri də bu əlaqələrin inkişafı baxımından xüsusi önəm daşıyır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumda çıxışı zamanı uzun illər Litva ilə Azərbaycan arasında əməkdaşlığın səviyyəsindən məmnun olduğunu bildirib: "Litva ilə Azərbaycan uzun illərdir ki, strateji tərəfdaşdırlar. Aramızda imzalanmış Strateji Tərəfdaşlıq üzrə Bəyannamə həqiqətən əməkdaşlığımızın mahiyyətini əks etdirir. Bu gün cənab Prezidentin səfəri bir daha əməkdaşlığımızın strateji mahiyyətini təsdiq edir".

Dövlət başçısı bildirib ki, Litva Prezidentinin səfəri çərçivəsində bir sıra tədbirlər baş tutacaq ki, onların arasında biznes forum da var: "İşgüzar dairələrimiz arasında praktiki fəaliyyətlə bağlı qarşılıqlı böyük maraq var. Əlbəttə, siyasi əlaqələrimiz, siyasi dialoq və regional vəziyyət bu gün müzakirə edəcəyimiz məsələlər sırasındadır və mən həqiqətən də şadam ki, biz Bakıda görüşmək imkanı əldə etmişik".



**GİTANAS NAUSEDA:**
"Azərbaycan Qafqaz regionunda Litvanın çox önəmli tərəfdaşıdır"

**İLHAM ƏLİYEV:**
"Litva ilə Azərbaycan uzun illərdir strateji tərəfdaşdırlar"

### "BİZ CƏNUBİ QAFQAZI SÜLH, ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI FƏALİYYƏT BÖLGƏSİ KİMİ GÖRMƏK İSTƏYİRİK"

"Biz bu gün Cənubi Qafqazda münaqişədən sonrakı vəziyyəti də müzakirə etdik. Mən bir daha Azərbaycanın mövqeyini ifadə etdim ki, biz Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyirik. Düşünürəm ki, İkinci Qarabağ müharibəsindən sonra bu əməkdaşlıq formatını yaratmaq üçün imkan var",- deyən dövlət başçısı bildirib ki, Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə və sabitliyə sadiqlik nümayiş etdirməyin vaxtıdır: "Biz, həmçinin Gürcüstanlı həmkarlarımız ilə bu barədə fikir mübadiləsi apardıq və onlar da bu seçimi çox müsbət qiymətləndirdilər. Lakin təəssüf ki, Ermənistan indiyə qədər Cənubi Qafqazda üçtərəfli qarşılıqlı fəaliyyət formatının ilkin olaraq başlanmasına həvəs göstərmir. Düşünürəm ki, imkanlar əldən verilməli deyil. Çünki indi Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə və sabitliyə sadiqlik nümayiş etdirməyin vaxtıdır. Postmünaqişə vəziyyətinə gəldikdə, bizdə müəyyən nikbinlik var. O fakta əsaslanaraq ki, Ermənistan rəsmi olaraq sülh müqaviləsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülən beş əsas prinsipi qəbul etmişdir".

İkinci Qarabağ müharibəsi qurtaran kimi Azərbaycanın açıq şəkildə sülh müqaviləsinin bağlanmasını və sərhədlərin delimitasiyasına dair birgə komissiyanın yaradılmasını dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev ümid etdiyini bildirib ki, Ermənistan həmin prinsipləri qəbul etdiyini ehtiva edən ilkin mövqeyinə sadiq qalacaq və bu, sülh sazişi üçün əsas olacaq. Dövlət başçısı onu da vurğulayıb ki, Azərbaycan Ermənistanı sərhədlərin delimitasiyasına başlamağa dəvət edib: "Çünki təxminən 30 il ərzində Ermənistanla dövlət sərhədimiz, o cümlədən Azərbaycanın 20 faiz ərazisini təşkil edən digər rayonları işğal altında olub. Buna görə sərhədlərin delimitasiyası zərurəti aydındır".

Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə aprelin 6-da Brüsseldə keçirilmiş görüş zamanı aprelin sonuna qədər hər iki tərəfin işçi qrup yaratması barədə razılıq əldə olunduğunu xatırladan dövlətimizin başçısı deyib: "Azərbaycan işçi qrupunu vaxtında yaratmışdır və nümayəndə heyətini ezam etməyə hazır idi. Bu, erməni tərəfi ilə razılaşdırılmışdır. Yeri gəlmişkən, sərhədlə bağlı ilk görüşün keçirilməsini təklif edən Ermənistanın Xarici İşlər Nazirliyi olmuşdur. Azərbaycan həmin təklifi qəbul etmişdir və biz nümayəndə heyətini göndərməyə hazır idik. Lakin, sonuncu gün - aprelin 29-da Ermənistan artıq razılaşdırılmış görüşü ləğv etdi. Bu, çox məyusedici məsələdir. Daha məyusedici isə, yenə də Ermənistanın ilkin təklifindən irəli gələrək, 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi təklifimizdən də Ermənistanın imtina etməsi oldu. Beləliklə, indiyədək, biz Ermənistandan hər hansı yeni tarixləri gözləyirik ki, işə başlayaq. Çünki bu cür məsuliyyətsiz mövqe, əlbəttə ki, narahatlıq doğurur". Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan hər zaman öhdəliklərə sadiq olub: "Lakin, biz eyni məsuliyyəti Ermənistan tərəfindən də görməliyik. Başqa sözlə, bizdə müəyyən nikbinlik olsa belə, Ermənistan hökumətinin bu cür manevrləri və çox qəribə addımları, əslində, yaranan müəyyən etimadı pozur".

### "BİZ TƏXMİNƏN 30 İL DANIŞIQLARA SADİQ QALDIQ, LAKİN ONLAR SIFIR NƏTİCƏ VERDİ"

"Azərbaycan BMT Nizamnaməsinin bizə verdiyi hüquqdan, özünü müdafiə hüququndan tam yararlandı. Biz təxminən 30 il danışıqlara sadiq qaldıq, lakin onlar sıfır nəticə verdi". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Litva Prezidenti Gitanas Nauseda ilə görüşlərindən sonra mətbuata bəyanatında İkinci Qarabağ müharibəsi barədə danışarkən səsləndirib. "Uzun müddət ərzində mən şəxsən hər zaman Ermənistana qarşı beynəlxalq ictimaiyyət tərəfindən sanksiyaların tətbiq edilməsinə çağırırdım. Əgər sanksiyalar, özü də, ciddi sanksiyalar tətbiq edilsəydi, onda, ola bilsin, heç müharibə olmazdı. Lakin əfsuslar olsun ki, Ermənistan çox xüsusi münasibətdən yararlandı və beynəlxalq hüququ kobud şəkildə pozduğuna, digər ölkənin ərazisini işğal etdiyinə baxmayaraq, Ermənistana heç bir sanksiya tətbiq edilmədi", - deyə dövlətimizin başçısı vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla özü bərpa etməli oldu, BMT-nin Təhlükəsizlik Şurasının Ermənistanın qoşunlarının dərhal çıxarılmasını tələb edən qətnamələrini özü icra etməli oldu. Nəhayət, döyüş meydanında və danışıqlar masasında Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuşdur.

Ardı Səh. 4

Əvvəli Səh. 3

# Azərbaycan - Litva münasibətləri: Beynəlxalq ZİRVƏYƏ DOĞRU

### "BİZ LİTVAYA AZƏRBAYCAN-AVROPA İTTİFAQI YAXINLAŞMASINI DƏSTƏKLƏDİYİNƏ GÖRƏ MİNNƏTDARIQ"

Prezident İlham Əliyev çıxışı zamanı bu gün işğaldan sonra torpaqlarımızın yenidən qurulması olduğunu söyləyib: "İndi biz ərazilərin yenidən qurulması və canlandırılması məsələsi ilə üz-üzəyik. Çünki hər şey dağıdılıb və yerlə-yeksan edilib".

Beynəlxalq ekspertlərin azad edilmiş şəhərlərdən biri olan Ağdamı "Qafqazın Hirosiması" adlandırdıqlarını diqqətə çatdıran dövlətimizin başçısı bir daha vurğulayıb ki, "biz sülhə sadiqik və ona mümkün ən tez bir zamanda nail olmaq istəyirik". Litva Prezidenti ilə çox uğurla inkişaf edən Avropa İttifaqı-Azərbaycan əməkdaşlığını geniş şəkildə müzakirə etdiklərini bildirən Azərbaycan Prezidenti deyib: "Həmçinin yeni saziş üzrə danışıqların yekunlaşdırılması perspektivlərini, enerji, nəqliyyat təhlükəsizliyi məsələlərini, ticarət münasibətlərini müzakirə etdik. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Avropaya təbii qazın ixracına başlamağımızı və neft-qaz qiymətlərinin artmaqda olduğu faktını nəzərə alaraq, bu il bizim Avropa İttifaqı ilə ticarət dövriyyəsinin həcmi, əlbəttə ki, artmaqdadır. Biz Litvaya Azərbaycan-Avropa İttifaqı yaxınlaşmasını dəstəklədiyinə görə minnətdarıq. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan artıq strateji tərəfdaşlıq haqqında bəyanatlar imzalayıb. Bu, üzv dövlətlərin üçdə biridir. Bu, onu göstərir ki, Avropa İttifaqı da bizim kimi əməkdaşlıqda maraqlıdır". "Bizim ixrac potensialımız artır. Bu il ixrac 85 faiz artıb, qeyri-neft ixracı isə 40 faizə yaxın artıb. Mən düşünürəm ki, bu, ölkənin dayanıqlı inkişafını göstərir",-deyən dövlət başçısı enerji potensialının Azərbaycan xalqının rifahına xidmət etdiyini deyib: "Çünki enerji potensialı təbii sərvətlərimizə əsaslanır və Azərbaycan xalqının, dost və qonşularımızın rifahına xidmət edir. Eyni zamanda, qeyri-enerji sahəsində artım da iqtisadiyyatımızda islahat aparmaq üçün hökumətimizin istəyini və bacarığını nümayiş etdirir".

Prezident İlham Əliyev onu da deyib ki, biz işsizlik səviyyəsini 5-6 faizə qədər azaltmağa nail olmuşuq: "Lakin bunu aşağı səviyyədə saxlamaq üçün biz hər il yeni iş yerləri açmalıyıq. Çünki Azərbaycanın əhalisinin sayı, 30 il əvvəl müstəqilliyimiz əldə olunandan bu günə qədər 7 milyondan 10 milyona qədər artmışdır və indi də artmaqdadır. Bu səbəbdən biz daha çox insan üçün iş yerlərinə sahib olmalıyıq. Xüsusilə də indi - dördüncü sənaye inqilabının nəticəsində bir çox işlərin artıq mövcud olmayacağı dövrdə biz özümüzü yeni iş sahələrinə hazırlamalıyıq".

### "BİZ AZƏRBAYCANDA NƏQLİYYAT ŞƏBƏKƏSİNİN ŞAXƏLƏNDİRİLMİŞ ZƏNCİRİNİ YARATMIŞIQ"

"Biznes dairələri və bir-birinə o qədər də yaxın yerləşməyən ölkələrimiz arasında əməkdaşlıq üçün dayanıqlı nəqliyyat yollarının olması çox önəmlidir. Biz Azərbaycanda bunun üzərində uzun illər işləmişik və nəqliyyat şəbəkəsinin şaxələndirilmiş zəncirini yaratmışıq. Mən bunu Qafqazlarda, həmçinin Xəzər dənizi boyu və Asiyada regionun yeni nəqliyyat xəritəsi adlandırardım",-deyən Prezident İlham Əliyev Azərbaycanın önəmli nəqliyyat mərkəzinə çevrildiyini vurğulayıb: "Coğrafi yerləşmənin üstünlüklərindən faydalanaraq biz müasir infrastruktur - dəniz limanı, dəmir yolu bağlantıları, bir neçə beynəlxalq hava limanları, avtomobil yolları yaratdıq. Biz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzərində yerləşirik. Həmçinin sizə deyə bilərəm ki, Azərbaycan şimaldan qərbə gedən yükləri də ötürür. Biz infrastruktura yatırımlar etdik. Lakin aydındır ki, qonşu ölkələrlə yaxşı işçi münasibətlər olmadan heç bir ölkə, xüsusilə də Azərbaycan kimi açıq dənizə çıxışı olmayan ölkə tranzit ölkəyə çevrilə bilməz. Açıq dənizə çıxışı olmayan ölkə olmasına baxmayaraq, biz Azərbaycanı önəmli nəqliyyat mərkəzinə çevirdik. Azərbaycanın rolu mütləq şəkildə artacaq".

Prezident İlham Əliyev qeyd edib ki, bu yaxınlarda nəqliyyat infrastrukturumuzun necə istifadə edilməsi ilə bağlı qonşularımızdan çox sayda yeni təkliflər almışıq: "Əlbəttə, əvvəlcə dediyim kimi, bu, Litva və Azərbaycandan olan biznes dairələrinin əməkdaşlığı və kommunikasiyanın ən yaxşı yollarının tapılması üçün çox önəmli olacaqdır".

### "BU İL BİZ AVROPA İTTİFAQI İLƏ ENERJİ DİALOQUNA BAŞLAMIŞIQ"

"Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir və bir çox digər ölkələrin, o cümlədən Avropa İttifaqının üzvlərinin də enerji təhlükəsizliyini təmin edir". Bu barədə Prezident İlham Əliyev Azərbaycan-Litva biznes forumundakı çıxışında bildirib. Dövlətimizin başçısı deyib: "Biz neft, qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edirik. Bizim planlarımıza qazın, elektrik enerjisinin və neft-kimya məhsullarının ixracını böyük həcmdə artırmaq daxildir. Neft ixracına gəldikdə, ixracın bugünkü profili bizi və istehlakçıları qane edir. Eyni zamanda, bugünkü geosiyasi vəziyyəti nəzərə alsaq, aydın olur ki, Azərbaycanın enerji resurslarına ehtiyac heç vaxt olmadığı qədər böyük olacaq. Bu il biz artıq Azərbaycanla Avropa İttifaqı arasında enerji dialoquna başlamışıq. O, bir çox sahələri - neft, qaz, elektrik enerjisi, hidrogen və bərpaolunan enerji mənbələrini əhatə edir".

### "AVROPA İTTİFAQI AZƏRBAYCANI ƏLAVƏ ENERJİ RESURSLARINA TÖHFƏ VERƏN TƏRƏF KİMİ QƏBUL EDİR"

Prezident İlham Əliyev Azərbaycana etibarlı və uzunmüddətli bazarlar, ədalətli nizamlama və qanunvericilik olan bazarların lazım olduğunu söyləyib: "Bu isə Avropa bazarıdır. Avropa istehlakçılarına isə əlavə enerji resursları mənbələri lazımdır. Bu baxımdan, əlbəttə ki, Azərbaycan Avropa İttifaqı tərəfindən töhfə verən tərəf kimi qəbul edilir". "Bərpaolunan enerjinin 2030-cu ilə qədər ümumi balansımızda ən azı 30 faiz olması planlarımızı nəzərə alaraq, hesab edirəm ki, həmin planlara dəyişiklik edilə bilər. Fikrimcə, biz hətta enerji balansımızda 30 və ya 40 faiz bərpaolunan enerjini nəzərdə tuta bilərik. Onda, əlbəttə ki, Avropa istehlakçıları üçün bərpaolunan enerji mənbələri hesabına istehsal edilmiş enerji daha çox cəlbedici ola bilər. Biz bunun üzərində işləyirik. Bu baxımdan, biz düzgün yoldayıq", - deyə dövlətimizin başçısı bildirib.

### "AVROPA İTTİFAQININ ÜZVLƏRİ, XÜSUSƏN DƏ LİTVA İLƏ ƏMƏKDAŞLIQ BİZİM ÜÇÜN STRATEJİ ƏHƏMİYYƏT KƏSB EDİR"

Dövlət başçısı çıxışı zamanı Avropa İttifaqının əsas ticari tərəfdaş olduğunu deyib: "Biz yeni sazişlə bağlı Avropa İttifaqı ilə aparılan danışıqların son mərhələsindəyik. Əlbəttə ki, Avropa İttifaqının üzvləri, xüsusən də Litva ilə əməkdaşlıq bizim üçün strateji əhəmiyyət kəsb edir. Şadam ki, bu əməkdaşlıq çox uğurla inkişaf edir". Litva ilə ikitərəfli ticari və iqtisadi gündəlikdən danışan Azərbaycan Prezidenti qeyd edib ki, iqtisadiyyatlarımızın bir-biri ilə rəqabət aparmaması çox yaxşı haldır: "İqtisadiyyatlar Avrasiyanın fərqli hissələrində yerləşir. Beləliklə, biz birgə səylərimiz və layihələrimizlə, daha çox məlumat verməklə bir növ iş birliyi qura bilərik. Hesab edirəm ki, bu gün keçirilən biznes forumun üstünlüklərindən biri imkanların, biznes mühitinin, qaydaların, vergilərin, sərmayə imkanlarının və digər məsələlərin nümayiş etdirilməsindən ibarətdir. Əminəm ki, hər iki ölkənin biznes nümayəndə heyətləri bu fürsəti əldən verməyəcəklər".

### LİTVA PREZİDENTİ GİTANAS NAUSEDA: "AZƏRBAYCAN QAFQAZ REGİONUNDA LİTVANIN ÇOX ÖNƏMLİ TƏRƏFDAŞIDIR"

Litva Prezidenti Gitanas Nauseda Azərbaycan Qafqaz regionunda Litvanın çox önəmli tərəfdaş olduğunu söyləyib: "İkitərəfli münasibətlərin 2007-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq üzrə Birgə Bəyanatın ruhuna uyğun şəkildə daha da inkişaf etdirilməsi bizim marağımızdadır". Litva prezidenti Azərbaycanla Litva arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunun vurğulayıb: "Mən tam inanıram ki, bizim iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün böyük potensial var. Bu səbəbdən mən özümlə Azərbaycana bir çox biznes nümayəndələrini gətirmişəm. Biz bazar imkanlarını araşdırmaqda və ikitərəfli ticarət həcmlərini artırmaqda maraqlıyıq. Mən, həmçinin Azərbaycan biznes missiyasını bu ilin sonlarında Litvaya səfərə dəvət edirəm".Prezident Gitanas Nauseda deyib ki, biz Avropa və onun təhlükəsizlik arxitekturası üçün önəmli dönəmdəyik: "Biz indi danışdığımız zaman Ukrayna öz suverenliyini və ərazi bütövlüyünü müdafiə edir. O, həmçinin qaydalara əsaslanan beynəlxalq nizamı müdafiə edir. İndi bütün mövcud praktiki vasitələrlə Ukraynanı dəstəkləmək vacibdir".

### LİTVA PREZİDENTİ: "AZƏRBAYCAN ENERJİ SEKTORUNDA AVROPA İTTİFAQININ ETİBARLI TƏRƏFDAŞIDIR"

"Litva Avropa İttifaqı ilə Azərbaycan arasında daha fəal əməkdaşlığın tərəfdarıdır. Azərbaycan Avropa İttifaqının Şərq Tərəfdaşlığı platforması kontekstində çox önəmli ölkədir və strateji enerji tərəfdaşıdır. Biz Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə irəliləyişi dəstəkləməkdə davam edirik",-deyən Litva Prezidenti Gitanas Nauseda Azərbaycanın enerji sektorunda Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu deyib: "Avropa İttifaqında enerji ixrac edən alternativ ölkələrlə, o cümlədən təbii qaz sahəsində Azərbaycanla əməkdaşlığın gücləndirilməsinə böyük maraq var. Azərbaycan enerji sektorunda Avropa İttifaqının etibarlı tərəfdaşıdır. Biz ölkələrimiz arasında Avropa və digər beynəlxalq inkişaf alətləri vasitəsilə əməkdaşlıq potensialını görürük. Biz öz uğurlarımızla və islahatlar sahəsindəki təcrübəmizlə bölüşməkdə maraqlıyıq".

"Son on il ərzində biz artıq böyük elektrik istehsalı işlərini icra etmişik, qaz və maye qaz terminalının tikintisi layihələrini həyata keçirmişik. Həmin terminalın inşası 2014-cü ildə başa çatdırılmışdır. Hazırda enerji sektorumuz günəş və külək enerji parklarından ibarətdir. Biz bu yaxınlarda Baltik dənizində ilk dəfə olaraq külək enerji parkını yaradacağıq",-deyən Litva Prezidenti Gitanas Nauseda forumundakı çıxışında bildirib. Azərbaycanın işgüzar dairələrini Litvanın ekosistemindən Avropa İttifaqı bazarına giriş nöqtə kimi istifadə etməyə çağıran Prezident Gitanas Nauseda hər iki ölkə üçün biznes əməkdaşlığının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb: "Litvanın ərzaq və kənd təsərrüfatı sahəsinin gücü müxtəlif çeşidli məhsullarda görünür. Nəticədə, biz ərzaq məhsullarımızı 150-dən artıq ölkəyə ixrac edirik. Nəhayət, bütün iqtisadi sahələr ixtisaslı əmək qüvvəsi sayəsində bir-biri ilə bağlıdır. Gənclərin 56 faizi ali təhsilə malikdir və bu göstəriciyə görə Litva Avropa İttifaqında lider mövqeyindədir. İki onillik öncə Avropa İttifaqına qoşulduqdan sonra Litva iqtisadi uğur qazanmışdır. Mənim ölkəmdə adam başına düşən ümumi daxili məhsulun payı ən sürətlə Avropa İttifaqının orta göstəricisinə yaxınlaşıb və bu reytinqdə biz yalnız İrlandiyadan sonra gəlirik". Litvalı həmkarı ilə bir çox məsələləri müzakirə etdiklərini bildirən dövlətimizin başçısı deyib: "Əlbəttə ki, biz məmnuniyyətlə ölkələrimiz arasındakı güclü siyasi əlaqələri, ikitərəfli gündəliyə aid müxtəlif məsələlərin həllinə kömək edən siyasi dialoqu vurğuladıq. İki il öncə cənab Prezident ilə videokonfrans vasitəsilə danışmaq imkanımız olub, çox konstruktiv və məhsuldar müzakirələr aparılıb. İndi də canlı olaraq ikitərəfli gündəliyə dair çoxlu vacib məsələlər haqqında danışmaq imkanımız oldu". Beləliklə, mayın 18-də tarixi əhəmiyyət daşıyan "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusuna həsr olunan forumda vahid mövqedən çıxış edən hər iki dövlət qarşılıqlı münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu nəzərə alaraq, öz aralarında yüksək səviyyəli dialoq və əməkdaşlıq qurub və hazırda da bu əməkdaşlığı inkişaf etdirmək üçün mühüm addımlar atmaqda davam edirlər. Ən əsası isə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənablarının yenə də həmişə olduğu kimi, bu beynəlxalq konfransdakı çıxışı və konfrans iştirakçılarının suallarına cavabları təkcə regionda deyil, həm də dünyada baş verən hadisələrə münasibəti, bu hadisələrə verdiyi qiymət bir daha göstərdi ki, Azərbaycan Prezidenti müdrik dövlət başçısı, dünya səviyyəli siyasətçi kimi dünya liderlərindən biri olmaqla, Azərbaycanın bugünkü reallıqları da təsdiqləyir ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tuta bilib.

**RƏFİQƏ KAMALQIZI**

# Yeni Azərbaycan Partiyasında böyük gənclər ordusu birləşib!

## YAP Gənclər Birliyi və Bakı Ali Neft Məktəbi 1-ci Rəqəmsal İdeya Müsabiqəsi keçirib



**Mayın 19-da Bakı Ali Neft Məktəbində (BANM) Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyi və Ali Məktəbin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş 1-ci Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib.**

Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan mərasim 1-ci Rəqəmsal İdeya Müsabiqəsi barədə videoçarxın nümayişi ilə davam etdirilib.

Sonra YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov müsabiqə barədə hesabat təqdim edərək bildirib ki, əsas məqsədimiz partiyanın gənc fəallarının innovasiya yönümlü potensiallarının aşkarlanması, komanda qurucuğu bacarığının təkmilləşdirilməsi və ölkəmizdəki innovasiya ekosistemində gənclərin iştirakının artırılmasıdır. Müsabiqə üçün respublikamızın 60 şəhər və rayonundan 1361 nəfər qeydiyyatdan keçib. Müraciət edənlər arasından











23 fərqli şəhər və rayonu təmsil edən 120 iştirakçı layihədə iştirak şansı qazanıb və bu iştirakçıların 55 nəfəri kişi, 65-i isə qadındır.

Bakı Ali Neft Məktəbinin rektoru, YAP İdarə Heyətinin üzvü Elmar Qasımov qonaqları salamlayaraq bu müsabiqənin gənclərin inkişafında, onların potensiallarının, bilik və bacarıqlarının artırılmasında xüsusi əhəmiyyətə malik olduğunu bildirib: "Əmək bazarının tələblərinə uyğun peşəkar mütəxəssislər yetişdirən Ali Məktəb olaraq gənclərin inkişafına dəstək verən bu cür tədbirləri təşkil etməkdən qürur duyuruq. Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi ilə birgə təşkil etdiyimiz bu müsabiqə innovasiya yönümlü gənclərin istedadlarını nümayiş etdirməsi üçün xüsusi fürsətdir. Əminəm ki, bu müsabiqə innovativ yanaşmaları ilə fərqlənən gənclərə böyük fayda verəcək".



SOCAR-ın vitse-prezidenti Xalik Məmmədov çıxışında YAP Gənclər Birliyi və BANM tərəfindən bu layihənin təşkil olunmasını yüksək qiymətləndirib və müsabiqənin Azərbaycan gəncliyinin inkişafında xüsusi önəm kəsb etdiyini qeyd edib. O, SOCAR-ın da gənclərin inkişafına xidmət edən müxtəlif təqaüd proqramları həyata keçirdiyini, bu proqramlardan yüzlərlə gəncin yararlandığını vurğulayıb.

Mərasimdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov vurğulayıb ki, Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsində ölkəmizdə yüksək intellektli, vətənpərvər, bilikli və bacarıqlı gənc nəsil formalaşıb.

*Ardı Səh. 6*

Əvvəli Səh. 5

Onun sözlərinə görə, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasında da böyük gənclər ordusu birləşib: "Yeni Azərbaycan Partiyası hər zaman gənclərin inkişafına geniş imkanların yaradılmasını, bilik və bacarıqlı gənclərimizə dəstək verilməsini diqqət mərkəzində saxlayıb. Partiyamız bu məqsədlə davamlı olaraq müxtəlif səmərəli layihələr həyata keçirir. İnanıram ki, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan bu müsabiqə seçilmiş 120 nəfər üçün çox faydalı olacaq və gənclərimiz öz innovativ potensialını təkmilləşdirəcək. Hesab edirəm ki, bu tipli layihələrin gələcəkdə də davam etdirilməsi gənclərimizin intellektual inkişafı üçün olduqca faydalıdır".

Daha sonra çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanda innovasiyaların inkişafı və bu sahədə yaradılan əlverişli şəraitdən, rəqəmsal transformasiyanın əhəmiyyətindən danışıb və qeyd edib ki, bu müsabiqə Azərbaycanın innovasiya ekosistemində gənclərin iştirakının artırılmasına töhfədir. O, müsabiqənin qarşıya qoyulan hədəf və məqsədlərə nail olduğuna əminliyini ifadə edərək vurğulayıb ki, rəhbərlik etdiyi nazirlik hər zaman bu tipli tədbirlərə dəstək göstərməyə hazırdır.

Təhsil naziri Emin Əmrullayev isə gənclərə təqdim olunan bu imkanı yüksək qiymətləndirərək vurğulayıb ki, müsabiqə istedadlı və innovativ yanaşmaları ilə seçilən gənclərin bacarıqlarının üzə çıxmasında böyük rola malikdir. Nazir rəqəmsallaşmanın əhəmiyyətini qeyd edərək bildirib ki, bu amil həyatın bütün sahələrində, xüsusilə də təhsildə vacibdir. Emin Əmrullayev iştirakçıların fərqli mühitdə, fərqli öyrənmə imkanı əldə etdiyi bu müsabiqədə xüsusilə regionlardan yüzlərlə gəncin iştirak etmək arzusunda olmasını sevindirici hal olaraq qiymətləndirib.



# Yeni Azərbaycan Partiyasında böyük gənclər ordusu birləşib!

## YAP Gənclər Birliyi və Bakı Ali Neft Məktəbi 1-ci Rəqəmsal İdeya Müsabiqəsi keçirib




















Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev çıxışında ölkəmizdə həyata keçirilən gənclər siyasətinin əhəmiyyətindən, gənc nəslə göstərilən dövlət qayğısından bəhs edərək bildirib ki, YAP və BANM-nin birgə təşkil etdiyi 1-ci Rəqəmsal İdeya Müsabiqəsi də gənclərin inkişafı yönündə atılan mühüm addımlardan biridir.

Tədbirdə çıxış edən Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru, müsabiqənin münsiflər heyətinin üzvü Fariz Cəfərov nəticələr haqqında məlumat verib. O, həmçinin regionlardan olan müəllimlərin rəqəmsal ideyalarının çox sevindirici olduğunu qeyd edib və bildirib ki, müsabiqə gənclərin innovativ vərdişlərə yiyələndiyini bir daha sübut etdi.

Qeyd edək ki, müsabiqənin qeydiyyat prosesi 14-28 aprel tarixlərində baş tutub. Müsabiqədə seçilən iştirakçılar 8 saat ərzində xüsusi mentorlarla komanda katalizatoru, hakaton, intellekt rinqi, beyin fırtınası, ideyalar sərgisi və layihələrin təqdimatından təşkil olunmuş komanda yarışlarında ən yaxşı olmaq üçün mübarizə aparıblar.

Mərasimin sonunda qaliblər mükafatlandırılıb. I yerin qalibi "Xudayar", II yerin qalibi "Zəfər", III yerin qalibi "Yarat" komandaları, "İntellekt" rinqinin qalibi isə "İnnovasiya" komandası olub.

# İpoteka kreditlərinə vətəndaşların əlçatanlığı





**Vətəndaşların mənzil şəraitinin, yaşayış vəziyyətinin daha da yaxşılaşdırılması ölkəmizdə hər zaman prioritet məsələ hesab olunub və bu istiqamətdə müvafiq addımlar atılıb, tədbirlər görülüb və bu tədbirlər davam etdirilir. Sözsüz ki, insanların sayının durmadan artması mənzillərə olan tələbatı da artırmaqdadır və məhz bu səbəbdən də insanların, ölkə vətəndaşlarının mənzillə təminatı hər zaman öz aktuallığını qoruyur. Elə buna görə də mənzillərə əlçatanlığın təmin olunması diqqət mərkəzindədir və dövlət tərəfindən bu məsələyə xüsusi əhəmiyyət verilir.**

Daşınmaz əmlaka, mənzilə olan tələbatın olması, bu tələbatın günü-gündən artması hələ heç də tələbin artması anlamına gəlmir. Ona görə ki, daşınmaz əmlaka olan tələbat ödəniş qabiliyyətli olduğu zaman tələbə çevrilir. Nəzərə almaq lazımdır ki, mənzilə ehtiyacı olan insanların heç də hamısı bu mənzillərin dərhal ödənişini etmək imkanına malik deyillər. Mənzilin qiymətinin, dəyərinin birdəfəlik ödənilməsi imkanına malik olanların sayı bu mənzillərə tələbatı olanlar arasında çoxluq təşkil etmir. Belə olan halda daşınmaz əmlak bazarında istənilən nəticəni görmək mümkün deyil və bir çoxlarının mənzilə olan tələbatı elə tələbat olaraq da qala bilər. Daha dəqiq desək, insanların bir çoxu mənzilə sahib ola bilməzlər.

Dünya təcrübəsində də rast gəlinir ki, mənzillərin satışı zamanı, eləcə də insanların mənzil əldə etmələri üçün kreditlərdən istifadə edilməkdədir. Daşınmaz əmlak bazarında ən çox istifadə edilən də ipoteka kreditləridir və bu kreditlər insanların mənzilə olan əlçatanlığını artırır. İpoteka krediti ilə mənzil alan insanlar həmin mənzildə yaşamaqla mənzilə görə kredit ödəyir və mənzilə sahib olur. Belə bir təcrübədən istifadə edildiyi və müsbət nəticə verdiyi nəzərə alınaraq, ölkəmizdə də vətəndaşlarımıza ipoteka kreditlərindən istifadə imkanları yaradılıb və çoxsaylı vətəndaşlarımız bu imkandan yararlanaraq mənzillərə sahib olublar. Hazırda bu kreditlərdən, ipoteka kreditlərindən yenə də istifadə edilir, yenə də vətəndaşlarımız mənzillərə sahib olurlar və ölkə vətəndaşları üçün bu imkanlar, mənzilə sahib olmaq imkanları daha da asanlaşdırılır, əlçatanlığı artırılır.

Bildiyimiz kimi, ölkəmizdə ipoteka kreditləri vətəndaşlarımıza illik 8 faizlə verilir və bu faiz dərəcəsi üzrə müəyyən güzəştlər də mövcuddur. Güzəştlər mümkün olduğu halda mənzil əldə edən müştərilər üçün faiz dərəcəsi 6 faiz, yaxud 4 faiz dərəcəsi tətbiq edilir ki, bu da müvafiq olaraq dövlət qulluqçuları və şəhid ailələrinə şamil edilir. Mənzilə sahib olmaq üçün nəzərdə tutulan ipoteka kreditlərini əldə etmək üçün mənzilin dəyərinin 15 faizi həddində ilkin ödəniş tələb olunur və bu şərtlər daxilində mənzil sahibi olan şəxs ipoteka ödənişini 25 ilə qədər müddət ərzində davam etdirir və yekunlaşdırır.

Sözsüz ki, ipoteka kreditlərindən istifadə və vətəndaşların mənzilə olan tələbatının ödənilməsinə əlçatanlığın təmin edilməsi müsbət məqamdır. Ölkəmizdə ipoteka kreditləri həm Azərbaycan İpoteka Fondunun vəsaitləri hesabına, həm də kommersiya banklarının öz vəsaitləri hesabına verilir. Bu da məhz daşınmaz əmlak, mənzil əldə etmək üçün ipoteka kreditlərinə vətəndaşların əlçatanlığını daha da artırır. Nəticədə daha çox insan bu kreditlərdən istifadə edərək mənzilə sahib olur və bu da mənzilə olan tələbin daha yüksək səviyyədə ödənilməsi deməkdir.

Hazırda tikinti şirkətləri arasında ipoteka ilə mənzil təklif edən şirkət də var. Bu tikinti şirkəti hazır mənzilləri müştərilərə təklif edir. Təklif edilən mənzillərin dəyərinin birdəfəlik deyil, kreditlə ödənilməsi də bu halda mümkündür. Həmin tikinti şirkətlərinin təklifinə uyğun olaraq mənzil sahibi olmaq istəyənlər əldə etdikləri mənzilə görə müvafiq müddət ərzində kredit ödənişini həyata keçirir və nəticədə mənzilə ahib olurlar. Hətta tikinti şirkətləri 6 faiz dərəcəsi həddində ipoteka krediti təklif edir və bu faiz dərəcəsi də mənzil sahibi olmaq istəyənləri qane edir.

İpoteka kreditləri və vətəndaşların bu kreditlərə əlçatanlığı barədə, bunun hansı səviyyədə olması haqda Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramova müraciət etdik. Millət vəkili bununla bağlı vəziyyətin qənaətbəxş olduğunu diqqətə çatdırdı və bildirdi ki, daha çox vətəndaşlarımızın bu kreditdən faydalanması bu gün müzakirə edilən məsələlərdəndir.

"İpoteka kreditlərinə əlçatanlığın artırılması prioritet məsələlərdəndir. Xüsusən nəzərə alsaq ki, həm adi, həm sosial ipoteka kreditlərinin əlçatan olması və daha çox vətəndaşlarımızın bu kreditdən faydalanması bu gün müzakirə edilən məsələlərdəndir. Xüsusən də adi ipoteka kreditlərinin faiz dərəcələrinə baxılması, azaldılması mümkündür və bizim bununla bağlı təkliflərimiz var. Nəzərə alsaq ki, adi ipoteka kreditləri 8 faizlə təklif olunur, amma ipoteka istiqrazları 3 faizlə yerləşdirilir və arada 5 faizli bir interval var, bu da təbii, imkan verir ki, adi ipoteka üzrə faizlərə baxılıb faizinin azaldılması mümkün olsun. Bu da təbii ki, əlçatanlığın artırılması baxımından vacibdir.

Eyni zamanda kommersiya banklarının öz vəsaitləri hesabına daxili ipoteka kreditləşməsinin genişləndirilməsi də vacib məsələlərdir və bizim də apardığımız təhlillər göstərir ki, bütövlükdə kommersiya bankları ipoteka kreditlərini daha yüksək faizlə təklif edirlər. Söhbət daxili kreditlərdən gedir. Daxili kreditlərin də faiz dərəcəsinin azaldılması və əlçatanlığın təmin edilməsi vacibdir, çünki ipoteka kreditləşməsi yalnız dövlət vəsaitləri deyil, həm də kommersiya banklarının daxili vəsaitləri hesabına genişlənməlidir ki, daha çox vətəndaşımız bu kreditlərdən yararlana bilsin", deyə Vüqar Bayramov bildirib.

*İnam Hacıyev*

## PA RƏSMİSİ: "Əməkdaşlığın prioriteti Qarabağ münaqişəsi olub"

"Ölkəmiz Türkiyə ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Vətəndaş cəmiyyəti sahəsində də müxtəlif təşəbbüslərlə çıxış edilib. Lakin bu ilin əvvəlində Dövlət Dəstəyi Agentliyi belə bir təşəbbüslə çıxış etdi ki, Vətəndaş cəmiyyəti təşkilatlarının əməkdaşlıq forumu və onun nəticəsi olaraq platforma yaransın. Ümid edirəm ki, bugünkü forumun nəticəsi olaraq Türkiyə Azərbaycan QHT-lərinin platforması qurulacaq". SİA xəbər verir ki, bu sözləri "Azərbaycan-Türkiyə QHT-lərinin Əməkdaşlıq Forumu"nda Prezident Administrasiyasının (PA) Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev deyib.




Onun sözlərinə görə, platformanın yaradılması əməkdaşlığın çərçivələrini müəyyən edəcək və əməkdaşlıq sistemli şəkildə həyata keçiriləcək: "Eyni zamanda bu prosesdə dövlət qurumu olaraq QHT-lərə Dövlət Dəstəyi Agentliyi də yaxından iştirak edəcək. Ardıcıl olaraq hər il bu əməkdaşlıq forumunun keçirilməsi nəzərdə tutulub".

Vüsal Quliyev sözlərinə belə davam edib: "Bizim QHT-lər son 20 ildə Türkiyə QHT-ləri ilə müxtəlif sahələrdə əməkdaşlıq ediblər. Amma bu əməkdaşlığın prioriteti Qarabağ münaqişəsi olub. İşğal dövründə Türkiyə QHT-ləri və mediası nə qədər Azərbaycana dəstək vermişdisə, bunu 44 günlük Vətən müharibəsində də etmişdilər".

*Ayşən Vəli*

## "Azərbaycan və Avropa İttifaqı arasında əlaqələr mövcuddur"

"Azərbaycan dövləti həyata keçirmiş olduğu strateji diplomatiya nəticəsində Avropanın enerji təhlükəsizliyində önəmli rol alan geosiyasi faktorlardan birinə çevrilib". Bu sözləri SİA-ya açıqlamasında politoloq Ceyhun Əhmədli bildirib.

Onun sözlərinə görə, əvvəldən Avropa İttifaqı ilə Azərbyacan arasında dərinləşən strateji tərəfdaşlıq münasibətlərinə məhz enerji təhlükəsizlik amili ilə yanaşılmasında fayda var: "Çünki Azərbaycan dövləti hazırda Avropanın bir çox ölkəsinin enerjiyə olan tələbatının ödənilməsində fəal şəkildə iştirak edir. Xüsusilə nəzərə almaq lazımdır ki, Avropada artıq ötən ildən başlayaraq enerji və təbii qazla bağlı bir böhran yaşanmaqdadır.



Həmçinin Rusiya-Ukrayna müharibəsi fonunda gələn qış və payız aylarında Avropa ölkələrində enerjiyə olan tələbat daha da artacaq. Bu baxımdan Azərbaycanla Avropa İttifaqı arasında olan enerji sahəsindəki əməkdaşlıq artan dinamika ilə inkişaf edəcək. Azərbaycan və Avropa İttifaqı ilə qeyd etdiyim kimi strateji tərəfdaşlığımız da mövcuddur. Kiçik ölkə olmağımıza baxmayaraq artıq Avropa İttifaqına üzv olan 9-a yaxın ölkə ilə bizim tərəfdaşlıq münasibətlərimiz var. Buna dolayısı ilə Avropa İttifaqının Azərbaycan üçün strateji tərəfdaş olduğunu deməyə əsas verir. Qərbdə çox nüfuzlu bir təchizat rolunda çıxış edən Avropa İttifaqının Azərbaycanla strateji tərəfdaş olması təbii ki, Azərbaycanın xarici siyasətinin uğurlu nəticəsi kimi xarakterizə olunmalıdır".

*Banuçiçək Hüseynli*

## Azərbaycanlı deputat AŞPA-nın Uşaqlar üzrə alt-komitəsinin iclasına sədrlik edib



**Dünən Fransanın Paris şəhərində Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevanın sədrliyi ilə AŞPA-nın Uşaqlar üzrə alt-komitəsinin iclası keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə "AŞPA-nın təklif etdiyi uşaqların müdafiəsi siyasəti", "Uşaqların iştirakı üzrə Baş Məruzəçinin səlahiyyətlərin təsdiqi" və digər məsələlər müzakirə olunub.

Sonra AŞPA-nın Sosial məsələlər, sağlamlıq və davamlı inkişaf komitəsinin iclasında "Peyvənd tərəddüdləri: əsas ictimai sağlamlıq problemi", "COVID-19 pandemiyasına qarşı mübarizənin yetkinlik yaşına çatmayanların və gənclərin psixi sağlamlığına təsirinin nəzərə alınması", "Sənədsiz işçilərin sağlamlığı və sosial müdafiəsi", "Təhlükəsiz tibbi təchizat zəncirlərinin təmin edilməsi" və digər mövzular müzakirə olunub.

# Azərbaycan-Norveç münasibətləri möhkəm təməl üzərində qurulub



**Azərbaycan müstəqillik qazandıqdan sonra dünya dövlətləri ilə diplomatik münasibətlərin qurulmasında uğurlu addımlar atmışdır. Artıq ölkəmizin beynəlxalq təşkilatlara üzvlüyünün, eləcə də bir çox ölkələrlə diplomatik münasibətlərin qurmasının 30-cu ildönümü tamam olur. Qərbi Avropanın qabaqcıl dövlətlərindən olan Norveçlə qarşılıqlı əlaqələr - diplomatik münasibətlər 1992-ci ilin iyun ayının 5-də qurulmuşdur. Bu münasibətlərin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu böyükdür. Neft ölkəsi olan Norveçlə diplomatik əlaqələrin yaradılması həyata keçirilən siyasi, eyni zamanda, mədəni əlaqələrin inkişafını sürətləndirdi.**

İki dövlətin - Norveç və Azərbaycanın dövlət və hökumət başçılarının rəsmi görüşləri zamanı imzalanan sənədlər bu əlaqələrin təməlini möhkəmləndirdi. Ötən dövr ərzində Norveç və Azərbaycan arasında siyasi, iqtisadi və humanitar əməkdaşlıq sahələrində yüksək səviyyəli qarşılıqlı səfərlər baş tutub, əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar və hüquqmüqavilə bazası yaradılıb. 24-27 aprel 1996-cı ildə Ulu Öndər Heydər Əliyev Norveç Krallığının Baş naziri Quru Harlem Brundtlandın dəvətilə Norveç Krallığında ilk rəsmi səfərdə olub. Paytaxt Osloda Ulu Öndər Heydər Əliyev Norveç Kralı V Harald başda olmaqla rəsmi və işgüzar dairələrin nümayəndələri ilə çoxsaylı görüşlər keçirib. Bu danışıqlardan sonra "Azərbaycan və Norveç arasında dostluq və əməkdaşlıq haqqında saziş" imzalanıb. Bu sənədin imzalanması ilə iki neft ölkəsi arasında münasibətlərin rəsmi hüquqi-diplomatik əsası qoyulub.

Dövlətlərarası iqtisadi əlaqələr münasibətlərin inkişafında mühüm rola malikdir. Norveçə məxsus neft şirkəti olan "Statoyl" 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"ndə pay alaraq Azərbaycan-Norveç iqtisadi münasibətlərinin əsasını qoyub. Norveç dövləti sənaye və energetika nazirinin birinci müavini Qunnar Möntinin rəhbərlik etdiyi böyük nümayəndə heyəti müqavilənin imzalanması mərasimində iştirak etmək üçün Bakıda olub. Bu müqavilə əsasında "Statoyl" şirkəti 8,71% pay alıb. Şirkət 2 il sonra Xəzərin Azərbaycan sektorunda yerləşən ən iri qaz yatağı sayılan "Şahdəniz"in hasilatın pay bölgüsü əsasında birgə işlənilməsində də 25,5% pay alaraq Azərbaycanla əməkdaşlığını daha da genişləndirib. 1998-ci ildə "Statoyl" şirkəti həmin sektorda yerləşən "Araz-Alov-Şərq" blokunun birgə işlənilməsində 15% paya sahib olub. Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında "Əsrin müqaviləsi"ni imzalayan dünyanın 11 ən iri neft şirkətindən biri Norveçin "Statoil" neft şirkəti olub.

1996-cı ildə Ulu Öndər Heydər Əliyevin Norveçə ilk rəsmi səfəri zamanı iki ölkə arasında iqtisadi əlaqələrin inkişafında müstəsna əhəmiyyəti olan sənədlər "Azərbaycan Respublikası və Norveç Krallığı arasında ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya", "Azərbaycan Respublikası Hökuməti və Norveç Sənaye və Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Memorandumun (21 noyabr 1994-cü ildə Bakıda imzalanan) həyata keçirilməsinə dair Protokol" imzalanıb.

Onu da bildirək ki, səfər çərçivəsində Ulu Öndər Heydər Əliyev Stavanger şəhərinə gəlib və "Statoyl" şirkətinin prezidenti Harl Norvinq ilə görüşüb. Ulu Öndər Heydər Əliyevin Harl Norvinq ilə görüşündə Norveç Dövlət Neft Şirkəti "Statoyl" ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) arasında Azərbaycanın karbohidrogen ehtiyatlarını dünya bazarına çatdıracaq neft - Bakı-Tbilisi-Ceyhan və qaz - Bakı-Tbilisi-Ərzurum kəmərlərinin inşasında da tərəfdaş kimi iştirak etməsini nəzərdə tutan sənəd imzalanıb. Ulu Öndər Heydər Əliyevin bildirdiyi kimi, "Statoyl" şirkəti Azərbaycan dövlət müstəqilliyinə nail olduqdan sonra ölkəmizlə iqtisadi əməkdaşlıq etmək istəyən dünyanın böyük şirkətlərindən respublikamıza birincilər sırasında gələn şirkətidir. Bunların hamısı Norveç-Azərbaycan əlaqələrinin, Norveç-Azərbaycan dostluğunun yaranması üçün çox böyük kömək olmuşdur."

**"ƏGƏR İNDİYƏDƏK BİZİM ƏMƏKDAŞLIĞIMIZ İKİ ÖLKƏNİN AYRI-AYRI ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏLƏR SƏVİYYƏSİNDƏ İDİSƏ, İNDİ BU, DÖVLƏTLƏRARASI SƏVİYYƏYƏ QALXDI"**

Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev bu əlaqələrin daha inkişafı istiqamətində töhfələrini verib. 2005-ci ildə Avropa Şurasına üzv ölkələrin dövlət və hökumət başçılarının Varşavadakı III zirvə toplantısı zamanı Azərbaycan Prezidenti İlham Əliyev Norveçin Baş naziri K.M.Bondeviklə görüşüb. Görüş zamanı ikitərəfli münasibətlərin və əməkdaşlığın inkişafı, o cümlədən "Statoil" Neft Şirkətinin Azərbaycandakı uğurlu fəaliyyətindən razılıq bildirilib. 28-29 aprel 2008-ci ildə Norveç Krallığının xarici işlər naziri Y.Stör Azərbaycan Respublikasında rəsmi səfərdə olub və Prezident İlham Əliyevlə görüşüb. Görüşdə ikitərəfli münasibətlərin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.

5 iyun 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Norveçin dövlət katibi, neft sənayesi və energetika nazirinin müavini xanım Anita Utsetin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla Norveç arasında energetika sahəsində qarşılıqlı surətdə faydalı əməkdaşlığın həyata keçirildiyi vurğulanıb və bu əməkdaşlığın gələcəkdə də inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. 2009-cu ildə Prezident İlham Əliyev Norveçin dövlət katibi Robin Martin Kaasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının ilk illərdən başlayaraq təkcə Azərbaycan üçün deyil, dünyanın enerji sahəsində inkişafı baxımından xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb. Azərbaycanla Norvec arasında mədəni əlaqələrinin dinamik inkişafında Ulu Öndər Heydər Əliyevin 1996-cı ilin aprelində bu ölkəyə rəsmi səfəri əhəmiyyətli rol oynamışdı. Həmin görüşdə "Azərbaycan Respublikası və Norveç krallığı "Birgə Bəyanat" imzaladı ki, bu da ölkələr arasında birbaşa əlaqələrin yaranması, sazişlərin imzalanmasında böyük əhəmiyyət kəsb etdi. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev bu hadisəyə böyük qiymət vermişdi. Ulu Öndərin bildirdiyi kimi, "İlk dəfədir ki, Norveçlə Azərbaycan arasında birbaşa sazişlər imzalanıb. Biz baş nazir xanım Brundtlandla Norveç-Azərbaycan əməkdaşlığı haqqında bəyanat imzaladıq. Bu, çox mühüm bir bəyanatdır. Başqa sazişlər də imzalandı... Əgər indiyədək bizim əməkdaşlığımız iki ölkənin ayrı-ayrı şirkətləri ilə əlaqələr səviyyəsində idisə, indi bu, dövlətlərarası səviyyəyə qalxdı. Bu, çox əhəmiyyətlidir".

İmzalanan sazişlər arasında iki ölkə arasında elm, təhsil, incəsənət, telekommunikasiya sahəsində əməkdaşlığın inkişaf perspektivlərini müəyyənləşdirən sənədlər də mövcuddur. Bu tarixi görüşdə Dahi Öndər Heydər Əliyev Norveç mədəniyyətini və onun tarixini əks etdirən tədbirlərdə də iştirak etmişdi.

## AZƏRBAYCAN - NORVEÇ MƏDƏNİ ƏLAQƏLƏRİ

Qeyd edək ki, hələ 1981-ci ildə etnoqraf Tur Heyerdal Qobustan qoruğunu ziyarət etmiş, burada qədim insanlar tərəfindən çəkilmiş qayıq rəsmlərini Norveçin Mis Dövrü qayıq rəsmlərinə bənzətmişdir. Bu səfər Heyerdalın Azərbaycan və Norveç xalqları arasında mümkün qədim əlaqələrə marağını artırmış, onun bir neçə dəfə daha Azərbaycana səfər etməsinə gətirib çıxarmışdır. 1995-ci ildə Heyerdal tərəfindən skandinaviyalıların qədim keçmişdə Azərbaycandan miqrasiya etməsi ilə bağlı nəzəriyyə irəli sürülmüşdür.

2011-ci ildə Azərbaycan Dillər Universiteti və Oslo Universiteti arasındakı Skandinaviya tədqiqatları layihəsinin bir hissəsi olaraq Bakıda elmi konfrans keçirilmişdir. Burada Heyerdalın nəzəriyyəsi haqqında ciddi elmi diskussiya aparmağa cəhd edilmiş, xüsusilə Azərbaycan-Norveç əlaqəsinə diqqət yetirilmişdir. 2013-cü il "Norveç günləri" keçirilmişdir.

Azərbaycan - Norveç mədəni əlaqələrinin tarixinə nəzər saldıqda, bu münasibətlərin hələ sovet quruluşu dövründə mövcudluğunu görmək mümkündür. Xüsusilə, kitab mübadiləsi, musiqi, təsviri sənət sahəsində yaranan qarşılıqlı əlaqələr Azərbaycan-Norveç mədəni əlaqələrinin bariz nümunəsidir. Bu sahələrdə sərgi, konsert və yaradıcılıq ezamiyyətlərinin təşkili mədəni əlaqələrin ənənəvi formaları kimi əhəmiyyət kəsb edirdi. 1971-ci ildə Azərbaycan musiqiçilərinin Norveçdə konsert çıxışları, 1986-cı ildə Norveç bəstəkarlarının respublikadakı çıxışları musiqi sahəsində əlaqələrin inkişafına başlıca səbəb oldu.

Azərbaycan ilə Norveç arasında dostluq əlaqələri bundan sonra da genişləndiriləcəkdir. Ölkəmizin sosial-iqtisadi inkişafı, qlobal iqtisadi layihələrin gerçəkləşməsi istiqamətində ardıcıl addımları və sülhsevər siyasəti dünya dövlətləri ilə münasibətlərin möhkəmlənməsinə və əməkdaşlığın davamlı olmasına təməldir.

***Nəzakət ƏLƏDDİNQIZI***

ANALİTİK + AKTUAL

# Qərb Ermənistanın Azərbaycana qarşı siyasətinə aşkar dəstək göstərir

## Azərbaycan isə səbrlə, təmkinlə prosesləri izləyir və doğru yerdə, doğru zamanda öz nəticəsini müvafiq qərarlarını verməsi ilə hasil edir!

**Məlum məsələdir ki, Ermənistandakı mövcud hakimiyyətin əsas qolu bilavasitə Qərb dairələrinə - siyasi təşkilatlarına, institutlarına, fond və beyin mərkəzlərinə bağlıdır. Bu xüsusda isə nəzərdən yayınmayan daha bir amil Ermənistanın Qərbə qarşı xəyanətlər etməsinə rəğmən, bu siyasi qütbün hələ də ona dəstək göstərməsi, himayəsi altında saxlamasıdır. Misal üçün, Qərb artıq Ermənistanda günlərdir ki, davam edən anti-hökumət etiraz aksiyalarında polisin, güc strukturlarının aksiyaçılara qarşı aşırı güc tətbiq etməsinə ya susur, ya da ümumiyyətlə göz yummaqla hətta zorakılığa məruz qalan müxalifətçiləri hədəfə alır.**

### Qərbin bəlli siyasi dairələri Azərbaycanın ünvanına şər-böhtanlar yağdırır, siyasi-ictimai hadisələrdən süni gündəm formalaşdırılır və əsasən də həmin vasitələri təzyiq alətinə çevirməyə çalışırlar

Diqqət çəkən daha bir amil - Ermənistandan fərqli olaraq, Azərbaycanda ən xırda hadisələr Qərb mediasında amansız zorakılıq kimi tirajlanır, ölkəmizə qarşı açıq-aşkar kampaniyalara start verilir. Məsələn, elə də uzağa getməyərək biz bir neçə gün əvvəl Fəvvarələr meydanında keçirilmiş dinc aksiya ilə bağlı Böyük Britaniya səfirliyinin hay-həşir salmasını, aksiyanın guya zorakılıqlara məruz qalması ətrafında bəyanatlar səsləndirməsini göstərə bilərik. Buradan da açıq-aydın görünür ki, Qərbin bəlli siyasi dairələri Azərbaycanın ünvanına şər-böhtanlar yağdırır, siyasi-ictimai hadisələrdən süni gündəm formalaşdırılır və əsasən də həmin vasitələri təzyiq alətinə çevirməyə çalışırlar.

Bəli, bu gün bir çoxları haqlı olaraq iddia edirlər ki, Qərb siyasi dünyası yalnız siyasi çevrə kimi tanınmır, həm də digər pərdəarxası məqamda ayrıca siyasət qurur. Bu məqamın adı isə xristian klubudur! Məhz Azərbaycanın müsəlman ölkə olması ilə yanaşı, Qərb ölkələrindən qat-qat üstün tolerantlığa, dini, milli-etnik dözümlüyə, multikultural dəyərlərə sahib olması qarşı tərəfləri sözün əsl mənasında qıcıqlandırır. Halbuki, SSRİ süquta uğradıqdan sonra monoetnik ölkəyə çevrilmiş Ermənistanda bu kimi dəyərlər ümumiyyətlə mövcud deyil, üstəlik siyasi mübarizə vasitələri hakimiyyət tərəfindən zorakı yollarla dağıdılır və bütün bu faktlar Qərbin qəsdən görməzliyi ilə müşahidə olunur, necə deyərlər, gözlər yumulur.

### Ermənistanın Qərbə riyakar yanaşması onun üçün sirr deyil!



Belə olan halda isə ikili standartlarla yanaşı, riyakarlıq amilləri də önə çıxır və riyakarlıq faktoru yalnız Qərb tərəfindən deyil, elə Qərbin dəstəklədiyi Ermənistan tərəfindən də ona qarşı yürüdülür. Mövcud situasiyalarda bir sıra siyasi texnoloqlar, analitiklər Ermənistana xüsusi güzəştli, selektiv münasibəti belə əsaslandırmağa çalışırlar ki, guya Qərb bu üsulla Ermənistanı özünə tərəf çəkməyə, şirnikləşdirməyə və Rusiyanın patronajlığı altından çıxarmağa çalışır. Amma Qərb üçün o da sirr deyil ki, Ermənistan müstəqil ölkə deyil, onun müstəqil xarici siyasət xətti yoxdur. Belə olan halda, Ermənistan necə ki, Qərbə qarşı riyakar davranırsa, Qərb də Ermənistana münasibətdə riyakar davranır və bu paralel riyakarlıqlar təəssüf ki, inkişaf və demokratiya yolunu tutan, müstəqil siyasət aparmaqla istər regional, istərsə də dünyəvi cəhətdən nüfuzlu ölkəyə çevrilən Azərbaycana qarşı işlədilməyə başlanılır.

Daha bir nüansı da xatırlatmağa dəyər. Yəqin ki, bir çoxları Qzaxıstan olaylarını unutmayıb. Və hazırda həmin Qərb bütün vasitələrlə Ukraynanın yanında olduğunu, anti-Rusiya xarakterində çıxış etdiyini əməli şəkildə sübuta yetirir. Bu zaman sual yaranır: əgər Qərb bir tərəfdən anti-Rusiya siyasəti aparırsa, onda KTMT-də Rusiyanın yanında olan Ermənistana hansı üzlə dəstək göstərir? Çünki o da faktdır ki, Ukraynada müharibə başlayar-başlamaz bütün Ermənistan boyunca Rusiyanın lehinə dəstək aksiyaları keçirildi. Və bu gün Rusiya ilə eyni cəbhədə döyüşən, Qazaxıstana ODKB bayrağı altında qoşun yeridən bir ölkə hakimiyyətinə - Ermənistana Qərbdə məxsusi hörmətin bəslənilməsi məhz Qərb dəyərlərinin özünə qarşı hörmətsizliyi kimi qiymətləndirilə bilər!

### Ermənistana bu qədər önəmin verilməsi arxasında başqa nə dayana bilər ki?!

Biz elə də uzağa getməyərək, bir müddət əvvəl ABŞ-da Demokratiya sammitinin keçirilməsini, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın isə həmin sammitə dəvət almasını da xatırlaya bilərik. Daha dəqiq desək, Ukraynaya siyasi və hərbi dəstək göstərən, Rusiya ilə bütün siyasi bağlantılarını kəsən ABŞ Rusiyanın yanında yer alan Ermənistanın başına sığal çəkir - bu da yumşaq ifadə etsək, riyakarlıq deyilsə, bəs nədir?! Yaxud, müstəqil, demokratik Azərbaycanın regionda və dünyada sülhün, sabitliyin mesaj verəni olmasına rəğmən, işğal siyasətini dəstəkləyən, demokratiyanı boğan Ermənistana bu qədər önəmin verilməsi arxasında başqa nə dayana bilər ki?!

Eləcə bənzər siyasəti Qərbin, Avropanın aparıcı ölkəsi kimi göstərilən Fransaya da aid edə bilərik. Fransa bütün dövrlərdə Ermənistanın işğalçılıq siyasətinə dəstəyini gizlətməyib, anti-Azərbaycan ritorikaları ilə özünü daha çox büruzə edib. Və bu gün Fransa da Ukraynaya dəstək göstərdiyini bəyan edir, əlavə olaraq Rusiyaya da loyallığını gizlətmir. Amma danılmaz fakt budur ki, Ukraynada Rusiya-Qərb qarşıdurması fonunda Ermənistan siyasi rəhbərliyinin özlərini Rusiyanın vassalı, ölkələrinin isə Rusiyanın əyaləti kimi aparmasına baxmayaraq, xüsusilə Fransa (!) özünün erməniپərəst siyasətini gücləndirir. Vətən müharibəsindən sonra da Fransa dövlət səviyyəsində Ermənistana hərtərəfli dəstəyini göstərməkdə davam edir, ölkənin hansısa uğursuz bələdiyyə strukturları qondarma ”dqr”i tanıdıqlarını bildirir, siyasi oyunbazlıqları ilə mənfur erməniçilik xislətlərini ortaya qoyurlar.

Diqqət çəkən faktlardan biri budur ki, Rusiya-Ukrayna müharibəsində digər Qərb ölkələri ilə müqayisədə Fransanın Rusiyaya qarşı loyal münasibət tutması, həm də Fransa siyasi dairələrinin Rusiya ilə gizli bağlılığının göstəricisidir. Bu arqument M.Lö Pen və Valeri Pekres, Nikola Sarkozinin simasında da öz təsdiqini tapdı. Fransa prezidentliyinə əsas namizəd olan hər iki siyasətçinin Rusiya xüsusi xidmət orqanları, keçmiş prezident Sarkozinin isə Kremlə yaxın oliqarxlara lobbiçilik etməsi ilə əlaqədar çoxsaylı məlumatlar aşkara çıxarıldı. V.Pekresin hələ SSRİ xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edildiyi, M.Lö Penin isə Rusiyadan 9 milyon avro alaraq geri qaytarmadığı öz təsdiqini tapdı.

Hətta Rusiyanın Ukraynaya hücumundan sonra Fransa prezidenti Emmanuel Makronun Ukrayna prezidenti Vladimir Zelinskiyə ölkədən qaçmağı, güzəşt etməyi təklif etməsi Ukrayna rəsmiləri tərəfindən dəfələrlə dilə gətirilib.

2008-ci ildən bəri Ukraynanın Avropa İttifaqı və NATO-ya inteqrasiyasını, bu gün isə üzvlüyünü bloklayan Fransa və Almaniyanın siyasi dairələrinin əsas simaları Rusiyanın Qərbdə lobbiçiliyini edib, bu ölkəyə məxsus iri şirkətlərlə şübhəli əməkdaşlığa cəlb olunub. Bu xüsusda, rəsmi şəxslərin, Avropa Parlamenti deputatlarının bəzilərinin Azərbaycana qarşı qərəzli mövqeləri heç də təsadüfi sayıla bilməz.

### Müstəqil, demokratik Azərbaycan dövləti heç bir siyasi dairələrdən asılı olmayaraq öz gündəmini formalaşdırır, icra edir, regionun inkişafı və tərəqqisi üçün əzm, iradə, qətiyyət sərgiləyir

Beləliklə, fakt ortadadır. Ermənistan antidemokratik siyasətini davam etdirir, ölkə hakimiyyəti daxildə zorakı vasitələrlə müxalifətçiləri dağıdır, həbs edir, onları cəzalandırır, Qərb isə antidemokratik Ermənistana dəstəyini ifadə edir, üstəlik bir-birlərinə qarşı riyakarlıq edən hər iki tərəf bu kimi utanc siyasətlərini yürütmələri ilə əslində nəyə ”qadir” olduqlarını isbatlayırlar. Və belə yerdə müstəqil, demokratik Azərbaycan dövləti heç bir siyasi dairələrdən asılı olmayaraq öz gündəmini formalaşdırır, icra edir, regionun inkişafı və tərəqqisi üçün əzm, iradə, qətiyyət sərgiləyir. Qərbin riyakarlığı isə yalnız özünə və Ermənistana qalacaq, söz yox ki, öz mənfi təsirləri ilə. Azərbaycan səbrlə, təmkinlə prosesləri izləyir və doğru yerdə, doğru zamanda da nəticəsini müvafiq qərarlarını verməsi ilə hasil edir!

*Rövşən RƏSULOV*

---

# “CityNet”dən 20%-dək endirim

“CityNet” abunəçilərinin artıq həm özləri, həm də ”CityNet” xidmətlərinə dəvət etdikləri dostları endirim qazanacaq. Yeni kampaniyaya əsasən, ”CityNet” xidmətlərinə abunəçi 1 dostunu dəvət edərsə illik endirim 10%, 2 dostunu dəvət edərsə illik endirim 20% təşkil edəcək. Həmçinin, kampaniya çərçivəsində ”CityNet”ə yeni qoşulan abunəçilərin də hər biri illik 10% endirim qazanacaqlar. Onu da qeyd edək ki, ”CityNet”ə qoşulan yeni abunəçilərə istifadə müddətində TV Box və Wi Fi ruter cihazı da pulsuz verilir.




Kampaniyadan yararlanmaq üçün abunəçi sadəcə linkə daxil olaraq özü və dəvət etdiyi dostu barədə məlumatları doldurmalıdır. Bir abunəçi ən çox 2 şəxsi ”CityNet” xidmətlərinə abunəyə dəvət edə bilər. Kampaniya seçilmiş tarifləri əhatə edir və limitli müddətdə qüvvədə olacaqdır.

”CityNet” Bakı, Sumqayıt və Xırdalan şəhərlərində yüksək sürətli sabit internet və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətlərini göstərir. Quraşdırılma xidməti abunəçilərə 24 saat ərzində təqdim edilir. Xidmətin hər hansı ünvanda mövcudluğunu şirkətin veb saytından da yoxlamaq mümkündür. Qoşulma şərtləri, yeni və mövcud tariflər, kampaniyalar, həmçinin texniki dəstək üçün *1177 və (012) 5377777 nömrələri ilə əlaqə saxlamaq kifayət edir. ”CityNet” xidmətlərinə qoşulmaq üçün sadəcə zəng mərkəzinə zəng edib sifariş vermək kifayətdir. Daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytından əldə etmək olar.

# Çernobılda zərər görən azərbaycanlılara əlillik müddətsiz təyin olunacaq



Çernobılda zərər görən azərbaycanlılara əlillik müddətsiz təyin olunacaq. SİA-nın xəbərinə görə, Baş nazir Əli Əsədov bununla bağlı Nazirlər Kabinetinin ”Əlilliyin qiymətləndirilməsi Qaydası”nda dəyişiklik edilməsi barədə qərar imzalayıb.

Qaydaya yeni bənd əlavə edilib. Yeni bəndə əsasən,Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında” qanunun 11-ci maddəsinin üçüncü hissəsinə əsasən qanunun 5-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində göstərilən şəxslərin əlilliyi Çernobıl qəzası nəticəsində əmələ gəldikdə əlillik müddətsiz müəyyən edilir.

# İctimai-siyasi xadim, işıqlı ideyalar müəllifi - Nizami Xudiyev



İnsan həyatı bir hekayədir. Bu hekayənin əsas xəttində dayanan insanın inkişaf, yüksələn dövrü, uğurları yazılır və onun mücadiləli, mənalı, işıqlı həyatı özündən ixtiyarsız obrazlaşdırılır, portret cizgiləri çoxsaylı insanların marağında olur. Zamanın ixtiyarına buraxılan ömrün müəllifi olduğumuz illərdə istedad və zəhmət həyat yolumuza naxış salır. Bərpa olunmayan zamanın hökmündə yaşanılan ömrün axtarışlarla ötən yolu salnamələrə köçür və illər ötdükcə zaman-zaman vərəqlənir. Bu gün çoxşaxəli fəaliyyəti ilə zəngin ömür yaşamış insanın - filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, ictimi-siyasi xadim "Qızıl qələm" mükafatı laureatı, Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər İttifaqının üzvü, Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü Nizami Manaf oğlu Xudiyevin həyat yolundan bəzi məqamları vərəqləyirik. 1949-cu il aprelin 1-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda ziyalı ailəsində dünyaya göz açan N.Xudiyevin maraqlı bir dünyası olmuşdur. Özünün qeyd etdiyi kimi uşaqlıq illəri görkəmli şairimiz Məhəmmədhüseyn Şəhriyarın keçirdiyi uşaqlıq illərinə bənzəyib. Məhəmmədhüseyn Şəhriyarın duyduqlarını, gördüklərini, yaşadıqlarını o da duymuş, görmüş və yaşamışdır.

### ELM VƏ YARADICILIQ DÜNYASINA APARAN İŞIQLI YOL

Onun qədim Naxçıvan torpağında anadan olması mənəvi aləminin zənginləşməsində müstəsna rol oynamışdır. Bu torpağın yetirmələri olan Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Məmməd Arazd kimi böyük simalardan güc almışdır. Əlbəttə ki, Azərbaycan əbədi mühitində, ictimai-fikir tarixində yeri olan ziyalıları yetirmiş bu torpaqda boy atmaq, onların cəmiyyətə aşıladığı fikirləri mənəvi dünyasına çəkib, düşünmək və yaradıcı təxəyyülün məhsulu olan nümunələri ortaya qoymaq, böyük insanların məslək və əqidə yolunun yolçusuna çevrilmək bir xoşbəxtlik, gözəl dünyaya qovuşmaq deməkdir. Zaman ötdükcə N.Xudiyev böyük insani dəyərləri əxz edərək, pilə-pilə yüksələn uğur yolunda ömrünə yazılacaq ağ səhifələri silinməyəcək sətirlərlə zəhmət və istedadı müqabilində qələmə aldı. Uşaqlıqdan yaradıcı mühitdə olmuş və ən görkəmli alimlərin, şairlərin, yazıçıların, dövlət xadimlərinin maraqlı söhbətlərinə qulaq asmış, tövsiyələrini dinləmiş və beləcə həyata vəsiqə almışdır. Tez-tez ocaqlarının qonağı olan dövrünün saylıb-seçilən simalarından Rəsul Rzanın, Cəfər Xəndanın, Süleyman Rəhimovun, Əli Vəliyevin, Mehdi Hüseynin, Osman Sarıvəllinin və digərlərinin söhbətlərinə qulaq asmış, bir-birindən mənalı xatirələr uşaqlıq yaddaşına elə həkk olunmuşdur ki, illər ötdükdən sonra belə, onların bir qismi yazıya köçürülmüşdür. Özü bu haqda belə yazırdı: "Tale elə gətirib ki, gözümü açandan həmişə elmi-yaradıcı mühitdə olmuşam. İnsana mənəvi cəhətdən çox şey verən bu mühitə doğru açılan cığırı, atılan ilk addımları adam heç vaxt yaddaşından çıxara bilmir. Tələbə elmi cəmiyyətindəki ilk araşdırma, geniş toplantıda ilk məruzə, qəzetdə çıxan ilk məqalə, nəhəng yazıçılarla keçirilən görüşdə ilk həyəcanlı çıxış məhz insanı elm və yaradıcılıq dünyasına aparan addımlardandır".

Vurğulamaq yerinə düşər ki, onun Azərbaycan dili və ədəbiyyat fənninə marağı, həvəsi, məhəbbəti atası aşılamışdır. Təsadüfi deyil ki, çox-çox sonralar N.Xudiyev borclu olduğu atası və orta məktəb müəllimləri barədə belə demişdir: "Bütün bunlara görə, mən ilk növbədə atama borcluyam, sonra böyük qayğılarını bizdən əsirgəməmiş orta məktəb müəllimlərimə". Həm ailədəki, həm də orta məktəbdə istedadlı müəllimlərdən dərs alaraq vətənə, el-obaya bağlı mükəmməl bir gənc kimi yetişir.

1966-cı ildə Cəlil Məmmədquluzadə adına Şahbuz qəsəbə orta məktəbini bitirdikdən sonra sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU-nun) filologiya fakültəsinə təqdim edir və tələbə adını qazanır. Həm dərs əlaçısı, həm də ictimai fəaliyyəti ilə hörmət qazanır. Qrup komsomol təşkilatının katibi, 1968-ci ildə fakültə komsomol təşkilatının katibi olur. Əla qiymətlərlə oxuduğu üçün 1969-cu ildə "Nizami" adına təqaüdə layiq görülür. Onun gələcəyinə böyük nikbiklə baxan görkəmli elm xadimi professor Ə.Dəmirçizadənin hər zaman diqqətində olmuşdur. Tələbəlik illərində görkəmli alim-müəllimlərdən dərs alır, onların gərəkli həyat təcrübələrini, məsləhətlərini əxz etməkdən çəkinmir. Aldığı mükəmməl bilik, təcrübə həmişə onun yolunda yaşıl işıq yandırıb. Ömrün içindən ömrə paylanan illərində sözünü əməyi və istedadı, bilik və bacarığı ilə deməyi bacarıb. 1970-ci ildə filologiya fakültəsinin fərqlənmə diplomu ilə başa vuran N.Xudiyev elmi şuranın qərarı ilə universitetdə saxlanılmış və Azərbaycan dilçiliyi kafedrasına müəllim təyin edilmişdir. Çox gənc ikən - 22 yaşından dərs deməyə başlamış, orada müəllim, baş müəllim dosent, professor kimi çalışmışdır.

Həqiqətən də, əql və elm ilə insan bütün dünyanı fəth edə bilər. İti ağıl və aydın dərrakə sahibi N.Xudiyev 1978-ci ildə "Abdulla Şaiqin nəsr dili" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edir. "Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf qanunauyğunluqları (Sovet dövrü)" mövzusunda doktorluq dissertasiyası Koordinasiya Şurasında təsdiq olunur.

1979-cu ildə yekdilliklə dərs dediyi təhsil ocağının Həmkarlar İttifaqı Komitəsinin sədri seçilir və 1991-ci ilə kimi fəaliyyət göstərir. 1990-cı ildə doktorluq dissertasiyasını müdafiə edir və bir müddətdən sonra professor vəzifəsinə layiq görülür.Tələbələrinin elmi biliklərə yiyələnməsində böyük rolu olmuş və bir çox doktorant və dissertantları yetişdirmişdir. Özünün də etiraf etdiyi kimi, Azərbaycan Dövlət Pedaqoji Universiteti onun üçün ziyarət etdiyi Məkkə, Mədinə və Kərbəladan sonra ikinci qibləgahı olmuşdur.

### "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ" MONOQRAFİYASI DİLÇİLİYİMİZDƏ VƏ MƏDƏNİYYƏTİMİZDƏ MÜHÜM TARİXİ HADİSƏYƏ ÇEVRİLDİ

İşıqlı ideyalar müəllifi, görkəmli elm adamı dilçiliyin az işlənmiş sahələrini, problemlərini tədqiq etmiş, ana dilimizin saflığı keşiyində duran dilçi alimlərin yolunun davamçısına çevrilmişdir. Millətin varlığını qoruyan və onun ruhunu yaşadan dil hər zaman mühüm əhəmiyyət kəsb edib. Dilçi alimlər xüsusilə bu yolda mübarizə aparıb, dilin təmizliyinin qoruyucusuna çevriliblər. N.Xudiyev yazırdı ki, ilk qələm təcrübələrim - ədəbi dil tarixi, türkologiya, yazıçı dili, bədii dil problemləri və s. mövzularda olub. Odur ki, müntəzəm olaraq bir-birinin ardınca "Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı", "Azərbaycan ədəbi dilinin zənginləşmə yolları", "Yazıçı dili və üslubu", "Azərbaycan ədəbi dilinin sovet dövrü", "Tərcümə ədəbiyyatı və ədəbi dilimiz", "Azərbaycan ədəbi dilinin təşəkkülü", "XIII-XVI əsrlər Azərbaycan ədəbi dili", "XV-XVI əsrlər Azərbaycan ədəbi dili", "Azərbaycan milli ədəbi dilinin yaranması və inkişafı", "XX əsr Azərbaycan ədəbi dili" və s. kitablarını çap etdirir. Moskva, Nalçik, Bişkek, Ufa, Aşqabad, Daşkənd, Alma-Ata, Ankara, İstanbul, İzmir, Adana, Konya və başqa şəhərlərdə keçirilən qurultay və simpoziumlarda nümayəndə kimi iştirak edir, məruzələrlə çıxış edir. Azərbaycan dilçilik elminə, türkologiyaya dəyərini itirməyəcək sanballı töhfələr verib. Əlbəttə ki, bu böyük elmi fədakarlıq və məsuliyyət, eyni zamanda vətənə sevgi idi. Onun qənaətinə görə, xalqın bugünədək keçdiyi bütün həyat yolunu yazılı nitqdə gerçəkləşdirən, onun keşiyində dayanan, uzaq tarixi keçmişlərlə çağdaş dövrümüzün arasında körpü funksiyasını yerinə yetirən çox qədim zamanlarda yaşamış nəsillərlə indiki nəsilləri bir-biri ilə bağlayan dildir. Dili xalqın dünyaya baxışlarını, psixologiyasını təşəkkür və etiqadlarını özündə saxlayan, qoruyan ən böyük, ən dəyərli zəngin bir xəzinə adlandırır.

"Heydər Əliyev və Azərbaycan dili" monoqrafiyasını qələmə alır. Bu əsər mədəniyyətimiz, dövlətçiliyimiz və dünya siyasəti tarixində fenomen şəxsiyyət olaraq əbədi yaşayan Ulu Öndər Heydər Əliyevin dilçilik görüşlərinin araşdırılması sahəsində ilk təcrübə, ilk təşəbbüs olmuş və ilk dəfə 1997-ci ildə kitab şəklində nəşr edilmişdir. "Heydər Əliyev və Azərbaycan dili" kitabında alim dövrümüzün ictimai-siyasi natiqlik məktəbi sayılan Ümummilli Liderin mükəmməl natiq obrazını təbii və canlı boyalarla yaratmışdır. Əsər tək dilçiliyimizdə deyil, mədəniyyətimizin tarixində mühüm hadisədir.Filologiyanın, dilçiliyin inkişafına töhfələrini verən və hər zaman elmi fəaliyyəti ilə diqqətdə olan N.Xudiyev yüksək vəzifələrə təyin olunmuş və ona göstərilən etimadı layiqincə doğrultmuşur. N.Xudiyev 1994-1996-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru vəzifəsində çalışmışdır.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN LİDERLİK MƏKTƏBİNDƏN DƏRS ALAN İCTİMAİ-SİYASİ XADİM

N.Xudiyev ictimai-siyasi mövqeyi və fəallığı ilə seçilmişdir. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı N.Xudiyevin ömür yoluna yeni səhifələr əlavə edir. N..Xudiyev Ulu Öndər haqqında belə yazır: "Xalqın Böyük Lideri, nəhəng Siyasətçi Heydər Əliyevin müasiri olmaq mənə də nəsib olub. Onun müasiri olub ondan öyrənmək özü bir xoşbəxtlikdir. Mən bu gün fəxrlə deyirəm ki, Heydər Əliyev dövrünün yetirməsiyəm, Onun zəmanəsinin övladıyam, Onun Liderlik məktəbində dərs almışam". O, ölkəmizin əsas və aparıcı partiyası olan Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü olub. 1995-ci ildən 2010-cu ilədək, üç çağırış millət vəkili kimi fəaliyyət göstərib. O, uzun müddətlik deputatlıq fəaliyyəti dövründə üzərinə düşən çətin, ancaq son dərəcə şərəfli vəzifənin öhdəsindən layiqincə gəlib. Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü olarkən "Təhsil haqqında qanun"un hazırlanmasında, onun müzakirəsində, komitənin səlahiyyətinə aid olan məsələlərin həllində fəal iştirak edibdir. O, millət vəkili kimi, Azərbaycanın müxtəlif dövlətlərlə münasibətlərinin inkişafında, əlaqələrin möhkəmlənməsində və genişlənməsində fəal iştirak etmiş, tez-tez xarici səfərlərdə olmuşdur. Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Belarus, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Hindistan, Azərbaycan-Pakistan, Azərbaycan-Türkiyə Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi ölkəmizin həmin dövlətlərlə əlaqələrinin möhkəmlənməsində və inkişafında fəal rol oynamışdır.

O, 1996-cı ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə məsul bir dövlət vəzifəsinə - Dövlət Teleradio Verilişləri Şirkətinin sədri vəzifəsinə təyin olunur. Düz on il o, ölkəmizin bir nömrəli ideoloji mərkəzinə rəhbərlik etdi. Onun rəhbərliyi dövründə "Turan", "Azərbaycan dili", "Vətəndaş", "Türk elləri", "Yallı", "Qala", "Karvan", "Buta", "Qobustan", "Səhər" proqramları ən populyar proqramlar olmaqla geniş ictimaiyyətin maraq dairəsinə çevrildi. Televiziyadakı iş təcrübəsi və müşahidələr alimə televiziya dili haqqında ümumiləşdirici əsər yazmaq üçün xeyli material vermişdir. Müəllif bu materiallar üzərində uzun illər araşdırma işi apararaq dilçiliyimiz üçün çox maraqlı bir monoqrafik tədqiqat əsəri "Radio, televiziya və ədəbi dil" ərsəyə gətirmişdir. Bu əsər müəllifin 650 səhifədən ibarət olan "Seçilmiş əsərləri"nin III cildində verilmişdir. Bu cildin təxminən 300 səhifəsində sırf radio və televiziyada dil probleminin nəzəri və təcrübi məsələlərindən bəhs edilir.

Tədqiqat dairəsi çox geniş olan N.Xudiyevin elmi axtarışlarının nəticəsi olaraq 60-dan çox monoqrafiyanın, dərslik və dərs vəsaitinin, 400-dən çox elmi məqalənin, 50-dən çox sənədli televiziya filminin ssenari müəllifidir. Onun elmi-pedaqoji fəaliyyəti ən yüksək mükafatlarla qiymətləndirilib. "Akademik Yusif Məmmədəliyev adına medal və mükafat", Respublika "Vektor" Beynəlxalq Elm Mərkəzinin "İlin ziyalısı" Beynəlxalq diplomu, "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı, "Türk dilinə xidmət" ödülü və sair mükafatlara layiq görülübdür.

Bacarıqlı, işgüzar və sədaqətli dövlət xadimi N.Xudiyevin vəfatından bir il ötür. İctimai xadim və ləyaqətli ziyalının şərəfli həyatı hər kəsə örkək ola biləcək bir ömür yoludur.

Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

## Şimali Qafqaz respublikaları müstəqillik qazanacaqlar?

*PROQNOZ+İDDİA*

**Quram Marxuliya: "Rusiya-Ukrayna müharibəsi Rusiyanın süqutunun başlanğıcıdır"**



"Fransa və Rusiya Azərbaycanla Ermənistan arasında birdəfəlik sülhün bərqərar olmasında maraqlı deyillər". SİA xəbər verir ki, bu fikirləri Rasim Babayevin YouTube kanalında yayımladığı "Sovremennıy razqovor" (Müasir söhbət) müəllif proqramında qonaq olan Qafqazın geotarixi və geosiyasəti beynəlxalq araşdırmalar mərkəzinin prezidenti, tarix elmləri doktoru Quram Marxuliya deyib.

Onun sözlərinə görə, nə Azərbaycan, nə də Türkiyə Ermənistanın düşmənləri deyil. Belə ki, Azərbaycan İrəvanı layihələrə cəlb etməyə hazırdır, ancaq bunun üçün sülh sazişini imzalamaq vacibdir. "Bu gün Ermənistan əhalisinin böyük hissəsi Nikol Paşinyanın siyasətindən razıdır, ona görə ki, qonşularla əbədi konfrontasiyada qalmaq mümkün deyil".

Gürcü professorun sözlərinə görə, Gürcüstan vilayətlərinin müstəqilliklərini tanımaq Rusiya dövlətçiliyinin nüfuzuna zərər vurur. "Xarici siyasətinə və gələcəyinə zərər vurur. Bu, sabah-birigün bumeranq kimi Rusiyanın özünə qayıdacaq. Rusiya-Ukrayna müharibəsi Rusiyanın özünün süqutunun başlanğıcıdır", deyə beynəlxalq araşdırmalar mərkəzinin prezidenti proqnoz verib.

Onun proqnozlarına görə, Şimali Qafqaz xalqları müstəqilliklərini elan edəcəklər. "Dağıstan, Çeçenistan, İnquşetiya, Kabardin-Balkar - bütün bu respublikalar müstəqil olacaqlar. Bu, sadəcə zaman məsələsidir", deyə Quram Marxuliya bildirib və əlavə edib ki, hazırda geosiyasi situasiya elə formalaşıb ki, həmin proses sürətlənməyə başlayıb.

***Rövşən***

# Müxalifət yeni təlimatlarla yüklənir

*Anti-Azərbaycan şəbəkənin hay-küyçülərin qanunsuz aksiyasına dəstək verməsi təxribatların eyni mərkəzdən idarə olunduğunu göstərir*

**44 günlük Vətən müharibəsində Azərbaycanın erməni faşizmini məhv etməsi və 30 il işğal altında olmuş torpaqlarımızın azad edilməsi, bununla yanaşı ölkəmizin iqtisadi, sosial, hərbi və siyasi cəhətdən böyük uğurlara imza atması anti - Azərbaycan şəbəkəni ciddi narahat edir. Son vaxtlar ölkəmizdə bəzi qaragüruh dəstənin populist bəyanatlarla çıxış edib, qanunsuz aksiyalar vasitəsi ilə qarşıdurmalar, iğtişaşlar yaratmağa cəhd etmələri məhz anti-Azərbaycan şəbəkənin qurduğu və əlaltıları vasitəsi ilə həyata keçirməyə çalışdıqları tapşırıqların nəticəsidir.**

Sosial bazası olmayan dağıdıcı xislətli müxalifət yalnız anti-Azərbaycan şəbəkənin sifarişlərini yerinə yetirməklə özlərinin maddi təminatını həll etməyə çalışırlar. Lakin bütün hallarda cib funksiyasını yerinə yetirməkdən başqa bir şeyə yaramayan dağıdıcı qüvvələr xarici ağalarının önündə üzüqara qalmaqdadırlar. Çünki ictimai rəydə heç bir dəstəyə malik olmadıqlarından keçirdikləri aksiyalar iflasa uğrayır. Uğursuzluğa düçar olsalar da cəhdlərini davam etdirməkdədirlər. Bu da onu göstərir ki, onlar xarici qüvvələr qarşısında təxirəsalınması, ümumiyyətlə ləğv edilməsi mümkün olmayan öhdəliklər götürüblər. Mayın 14-də feminist deyilən qrupların və onlarla eyni davranışı həyata keçirən siyasi partiya təmsilçiləri, "ictimai fəallar", özlərini bloger kimi təqdim edənlər, ancaq fəaliyyətləri ilə jurnalist adına ləkə vuran bir neçə işbaz jurnalist "Fəvvarələr" meydanı önündə qanunsuz aksiya keçirməyə cəhd etmələri növbəti tapşırıqlardandır. Ancaq müxalifətyönümlü qrupların küçələrə çıxaraq, qeyri-qanuni şüarlarla çıxış etmələri, polislə qarşıdurma yaratmağa çalışmaları iflasa uğradı. Aksiyada fərqli geyimdə fəqrli yönümlü insanlarla yanaşı, əsasən, cəmiyyətdə cinsi azlıqların cəmləşdiyi qurum kimi tanınan LGTB və onlarla həmfikir olan siyasi partiyaların təmsilçiləri iştirak edirdi. Aksiyada qaldırılan plakatlardan birində "Petuxlar mafiya sistemə qarşı" "şuarı" yazılmış plakatın qaldırılması və plakatın önündə aksiyanın əsas aparıcı şəxsləri - "Milli Şura"nın koordinasiya şurasının üzvü Tofiq Yaqublunun, özünü ictimai fəal kimi təqdim edən Bəxtiyar Hacıyevin və digərlərinin olması müəmmalı suallar yaradır. Əcəba bu şəxsləri belə iyrənc şüara bağlayan nəsə varmı? Yoxsa, anti-Azərbaycan şəbəkə onları bu kimi iyrənc şüarlarla çıxış etməyə məcbur edib.

### "Aksiyada fəallıq edən feministlər, cinsi azlıqlar bizim cəmiyyətimizə tamamilə yaddırlar"

Tanınmış siyasi şərhçi Elşad Həsənov may ayının 14-də "Fəvvarələr" meydanı önündə qanunsuz aksiya keçirən şəxslərin səsləndirdikləri fikirləri, qaldırdıqları şüarları biabırçılıq adlandırıb: "Aksiyanın başlıca tələbi "ictimai fəallara qarşı törədilən cinayətlərə son qoyulması" ilə bağlı idi. Onlar həmin aksiyada əsas tələb kimi Daxili İşlər Nazirliyinin cəzalandırılmasını qoymuşdular. Qeyd edim ki, belə məzmunlu davranışlar ölkəmizin imicinə ciddi ziyan vurur. Sağlam məntiqlə baxsaq, heç bir hakimiyyət istəməz ki, belə cinayətlər olsun, bunun da nəticəsində özünü hədəf eləsin. Biz bilirik ki, həmin dairələrin nəzarətində olan adamlarla bağlı nəsə baş verən kimi beynəlxalq təzyiqlər güclənir. Hətta ABŞ kimi ölkənin Dövlət Departamenti belə bu cür məsələlərə reaksiya verir. Hansısa jurnalistə qarşı zorakılıq etmək qətiyyən hakimiyyətə lazım deyil. Bu baxımdan da aksiyanın tələbi çox məntiqsiz olub. Bu cür hadisələri törətməklə hakimiyyəti hədəfə gətirmək istəyən qüvvələr var. Aksiyada fəallıq edən feministlər, cinsi azlıqlar bizim cəmiyyətimizə tamamilə yaddırlar. Xarici qüvvələrin təşəbbüsü ilə ortaya çıxan həmin qrupların tələbləri bizim mentalitetimizə qətiyyən uyğun deyil. Son aksiyada biz onların səsləndirdiyi şuarları və qaldırdıqları plakatları gördük. Buna biabırçılıqdan başqa heç bir ad vermək olmaz. Onların bir məqsədi vardı - provokasiya törətmək. Hiss etdik ki, polislər onların təxribatına uymadılar, aksiya dinc şəraitdə keçdi. Vəziyyəti gərginləşdirmək istəyən üçüncü qüvvələr mütləq tapılaraq ifşa olunmalıdır. Mən əminəm ki, DİN bunun öhdəsindən gəlməyi bacaracaq. Xüsusilə də, Qarabağla bağlı gedən danışıqların belə həssas məqamında daxildə gərginliyə imkan vermək olmaz". Diqqətçəkən məqam ondan ibarətdir ki, aksiya ilə bağlı əvvəlcədən sosial şəbəkələr və digər vasitələrlə təbliğati işlər aparılmışdır. Xüsusilə də, ABŞ Dövlət Departamentinin nəzarətində olan "Amerikanın səsi" və "Azadlıq" radioları üç gün aksiya ilə bağlı geniş təbliğat apardılar, təşkilatçılarla müsahibələr, onların dilindən çağırışlar etdilər. Təbii ki, bu cür mövqe sərgiləmək, jurnalistika yox, açıq propoqanda idi. Ancaq bütün cəhdlər iflasa uğradı və aksiyada çox az sayda adam iştirak etdi. Hay-küy salan iştirakçıların çoxu özlərini jurnalist kimi göstərən, müxtəlif rəngli gödəkcələr geyinmiş qızlar idi.

### Polis təxribatçılara qarşı sakit davranış nümayiş etdirdi

Aksiya qanunsuz olsa da, heç bir insident



baş vermədi. Polis yüksək peşəkarlıq nümayiş etdirərək pozucu şəbəkə üzvlərinə qarşı etik və qanunlar çərçivəsində davranış nümayiş etdirdi. Baxmayaraq ki, polisin ünvanına açıq şəkildə tərbiyəsiz və təhqiramiz fikirlər səsləndirildi. Polis isə təxribatçıları qanunlara əməl etməyə dəvət etdi. Ancaq təlimata əsasən küçələrə çıxanlar heç bir qanuni tələblərə əməl etmədən təxribatlarını davam etdirdilər. Hətta siyasi tələblər və siyasi çağırışlar səsləndirməkdən çəkinmədilər. Bütün bu qanunsuzluqlara baxmayaq iştirakçılar aksiyanın sonunda bəyanatlarını səsləndirib, şəkillər çəkdirib, dağılışdılar. Böyük Britaniyanın və Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirlikləri isə gözləndiyi kimi heç bir beynəlxalq diplomatik etik qaydalarına əməl etmədən qanunsuz aksiya ilə bağlı ağzıgöyçəklik edən, şər və böhtandan başqa bir şeyə yaramayan açıqlama ilə çıxış ediblər. İddia edilir ki, "may ayının 14-də dinc etiraz aksiyası dağıdılıb", "zorakılıq" tətbiq olunub, həbslər baş verib. Açıqlamanın aksiyadan dərhal sonra verilməsi onu təsdiq edir ki, səfirliklər və aksiya keçirənlər eyni mərkəzdən təlimat alaraq, fəaliyyətlərini qurublar. Sual olunur, yarım dövlət funksiyasına malik Ermənistanda keçirilən aksiyalar zamanı 473 nəfər həbs edilib, jurnalistlər saxlanılıb, 100-ə yaxın iştirakçı polis zorakılığı səbəbindən xəstəxanalara yerləşdirilib, ABŞ və ya Böyük Britaniya dövlətləri nədən, baş verən rüsvayçılıqlara münasibət bildirmir. Azərbaycanla bağlı sözügedən dövlətlərin fərqli mövqe nümayiş etdirməsi Qarabağ məsələsində olduğu kimi ikili standartların nümunəsidir. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyini mayın 14-ü paytaxtın "Fəvvarələr Meydanı"nda keçirilən aksiya ilə bağlı bəyanat yayıb, Böyük Britaniyanın və Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliklərinin aksiya ilə bağlı qızışdığıcı mövqelərinə sərt münasibətini qeyd edib: "Artıq xəbər verildiyi kimi, 2022-ci il mayın 14-də bir qrup şəxs Səbail rayonu ərazisindəki "Fəvvarələr meydanı"nda müvafiq dövlət qurumları ilə razılaşdırılmamış aksiya keçirib. Bu aksiyanın Azərbaycan Respublikasının "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanununa zidd keçirilməsinə baxmayaraq, polis əməkdaşları tərəfindən aksiyaya müdaxilə edilməyib, əksinə, iştirakçıların təhlükəsizliyi təmin olunub və aksiyanın yekununda müvafiq bəyanat səsləndirilib. Aksiya zamanı hər hansı insident qeydə alınmayıb və saxlanılan olmayıb".

### "Səhvi etiraf olunmalıdır"

Daxili İşlər Nazirliyinin bəyanatında vurğulanır ki, aksiya zamanı insident baş verməsə də elə həmin gün Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin polisin aksiyaya ciddi müdaxilə etməsi və çoxlu sayda saxlanılan şəxsin olması barədə yanlış məlumat yayması qəbuledilməzdir və Azərbaycan Respublikasının daxili işlərinə əsassız müdaxilədir: "Bu aksiyanın təşkilatçıları və iştirakçıları tərəfindən aksiyanın normal şəkildə keçdiyi və polisin davranışının qənaətbəxş qiymətləndirildiyi halda Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin aksiyaya yanlış qiymət verməsi və ittihamedici iddialarla çıxış etməsi başadüşülən deyil. Bu bəyanatı öz xidməti vəzifələrini yerinə yetirən polisin nüfuzuna xələl yetirmək cəhdi kimi qiymətləndiririk.Böyük Britaniyanın Azərbaycandakı səfirliyini yaydığı bəyanatı təkzib etməyə və yol verdiyi səhvi etiraf etməyə çağırırıq. Ümid edirik ki, Böyük Britaniyanın Azərbaycandakı səfirliyi iki ölkə arasında əməkdaşlığın və səmimi dialoqun inkişafına xidmət edəcək tərzdə fəaliyyət göstərəcək, süni siyasi əngəllər yaratmaq cəhdindən çəkiləcək".

Bir sözlə, görünən ondan ibarətdir ki, dağıdıcı müxalifət havaların istiləşməsi ilə təxribatçı əməllərini yenidən bərpa edib. Ötən illərlə müqayisədə bu dəfə sıralarına cəmiyyətimiz üçün yad olan iyrənc bir qrupu- feminstəri qoşublar. Ancaq məsələ ondan ibarətdir ki, yeni iştirakçılarla köhnələr uzun yol gedə biləcəklərmi? Təbii ki, sualın cavabını zamanın ixtiyarına buraxaq. Bununla belə qeyd etmək olar ki, harda Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı varsa, orada parçalanmanın, qopmanın olması şübhəsizdir.

***İ.ƏLİYEV***

# Erməni təxribatları nə ilə nəticələnəcək?

**"Paşinyanın Rusiyaya səfərləri artıq mütəmadi xarakter alıb. Bu dəfəki səfər isə sırf KTMT-nin toplantısı ilə bağlı səfər idi, amma Paşinyan bu toplantıdan belə istifadə edərək Qarabağ məsələsi ilə bağlı fikir formalaşdırmağa cəhd etdi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.**

Onun sözlərinə görə, Azərbaycan KTMT-nin üzvü olmasa da bizlər təbii olaraq həmin toplantını diqqət mərkəzində saxladıq. Çünki, Ermənistanın o qurumda təmsil olunması və Paşinyanın dəfələrlə həmin qurumdan Azərbaycana qarşı istifadəyə cəhd etməsi bu toplantıları və orada qəbul olunan qərarları daim diqqətdə saxlamağı şərtləndirir.

Erməni baş nazirin yeni savaş olacağı təqdirdə, KTMT-nin bu dəfə Ermənistana dəstək verəcəyinə ümid bəslədiyini deməsi, rəsmi İrəvana hansısa vədlər verildiyini göstərir. Paşinyan Moskvada keçirilən son sammitdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından narazılığını ifadə edib. O çıxışında KTMT-nin 44 günlük müharibədə Ermənistanın gözləntilərini doğrultmadığını bildirib və qeyd edib ki, KTMT, Kollektiv Təhlükəsizlik Şurası tərəfindən təsdiqlənən 2010-cu il 10 dekabr tarixli böhranlı vəziyyətlərə reaksiya barədə sənədə uyğun hərəkət etməyib: "Təəssüf ki, təşkilat Ermənistan Respublikasının gözlədiyimi kimi, reaksiya vermədi". O daha sonra KTMT-yə üzv olan ölkələr tərəfindən Azərbaycana silah satışı ilə bağlı məsələni də qaldırdıqlarını əlavə edib: "Düzünü desək, KTMT-yə üzv ölkələrin 2020-ci ildə 44 günlük müharibə zamanı və müharibədən sonrakı dövrdə reaksiyaları Ermənistanı və erməni xalqına çox da şad etmədi".

Səfərin regiona və ümumilikdə Azərbaycanla Ermənistan arasında münasibətlərə təsirinə gəldikdə isə qeyd etməliyəm ki, biz Paşinyanın Moskvaya hər səfərdən sonra onun ritorikasında müəyyən dəyişikliklər baş verdiyinə şahidlik edirik.

Xatırlayırsınızsa bir ay bundan qabaqkı səfərdən sonra onun əvvəlki mövqedən fərqli açıqlamalar verdiyini gördük. Əslində, Ermənistan



baş naziri Nikol Paşinyanın Moskvaya aprel səfərindən sonra rəsmi İrəvanın məhz belə davranacağı ilə bağlı ehtimallar mövcud idi. Və erməni baş nazirin Ermənistana dönüşündən sonra verdiyi açıqlamaların məzmunu da bu ehtimallara inandırıcı görüntülər qatırdı. Həmin vaxt Paşinyan Kremldə Rusiya prezidenti Vladimir Putinin sərt təzyiqləri ilə üzləşmişdi. Erməni baş nazirə Brüssel anlaşmalarının icrasına Rusiyanın verə biləcəyi reaksiya izah edilmişdi. Ondan birmənalı şəkildə Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli anlaşmalardan kənara çıxılmaması tələb olunmuşdu.

Şübhəsiz ki, Ermənistan da Kremlin tələblərinə müqavimət göstərə bilmədiyindən Kremlin təlimatlarını yerinə yetirməyə məhkum oldu. Belə ki, baş nazir Nikol Paşinyanın Moskvaya aprel səfərindən öncə Azərbaycanın sülh sazişinin hazırlanması üçün gündəmə gətirdiyi və beynəlxalq hüquq normalarından qaynaqlanan 5 şərti qəbul etmişdi. Erməni baş nazir geri döndükdən sonrasa, rəsmi İrəvan artıq özü də 6 şərt irəli sürmək qərarına gəldi. Və böyük ehtimalla Paşinyan hakimiyyətinin mövqeyindəki bu dəyişiklikdə Rusiyanın Ermənistanda revanşist müxalifəti küçələrə çıxartmasının da rolu olmamış deyil.

Başqa sözlə desək fakt ondan ibarətdir ki, rəsmi İrəvan Rusiyanın maraqlarından çıxış edərək, Azərbaycan və Ermənistan arasında hərbi gərginliyin qalmasına üstünlük verir. Ermənistan sülh sazişi hazırlanması prosesini uzatmağa yönəlik mövqe tutmağa başlayıb.

Təbii ki, rəsmi İrəvanın bu cür mövqe sərgiləməsi Paşinyan hakimiyyətinin Brüssel anlaşmaları ilə ümidverici mərhələyə keçmək şansı qazanmış sülh sazişinin hazırlanması prosesinin pozulmasına cəhddən başqa bir şey deyil. Belə anlaşılır ki, rəsmi İrəvan Kremlin təzyiqləri hərbi-siyasi qarşıdurmanın davam etdirilməsinə çalışır.

İndi də səfər zamanı keçirilən sammitdə KTMT-ni rəsmi İrəvanın müraciətinə reaksiya verməməkdə, Ermənistanı Azərbaycan qarşısında müdafiə etməməkdə qınayaraq, növbəti dəfə KTMT-nın fərqli davranacağına ümid bəsləməsini deməsi ortaya müəyyən sullar çıxarır. Növbəti dəfə dedikdə nə nəzərdə tutulur? Ermənistan yeni müharibəyəmi hazırlaşır?

Əgər söhbət kimlərinsə diqtəsilə yeni savaşa başlamaqdan gedirsə və bu dəfə KTMT qoşunlarının onlara dəstək verəcəyinə ümid edirlərsə bilməlidirlər ki, əvvəla KTMT NATO üzvü olan Türkiyənin müttəfiqi Azərbaycanla hərbi qarşıdurmaya qətiyyən getməz, ikincisi isə "Rus NATO-su"na olan belə boş ümidlər Ermənistanı növbəti dəfə məğlub olacağı savaş təhlükəsinə doğru sürükləyir.

***Banuçiçək Hüseynli***

# KTMT ilə bağlı PUÇ OLAN ERMƏNİ ARZULARI

***Bütün danışıqlar prosesində qarşılaşdıqları diplomatik məğlubiyyətlər Ermənistanı da, erməni cəmiyyətini də tamamilə ruhdan salıb və indi göstərdikləri çabaları da son çırpıntılar təəssüratı bağışlayır. Rusiya Prezidenti ilə Ermənistanın baş nazirinin Moskvada keçirdiyi görüş zamanı İrəvanın məhz Qarabağla bağlı siyasətinə dəyən ağır zərbədən bu ölkənin vətəndaşları da, ölkə hakimiyyəti də hələ də şokdadır. Görünür elə bu uğursuzluqların, bu şokun təsirindən Ermənistanın baş naziri başını itirib və gah ATƏT-in Minsk Qrupunun rolu ilə bağlı müzakirələrə başlamağa səhd edir, gah da KTMT-ni hərhansı formada yenə də günahlandırmağa çalışır.***

"Biz Qarabağ probleminin həllində fəal birgə fəaliyyətimizi artıq üçtərəfli formatda Azərbaycandan olan tərəfdaşlarımızla birlikdə davam etdiririk", deyə söyləyən Rusiya Prezidenti Vladimir Putin bu dəfə də özbəyanatında Dağlıq Qarabağ ifadəsini işlətmədi və bu da ermənilər üçün, baş nazir Nikol üçün daha bir zərbə oldu. Ola bilsin ki, Paşinyanın hansısa bir ifadəyə də olsun ümidi var imiş, amma indi o da yoxdur, çünki ən yaxın, böyük qardaş hesab etdikləri ruslardan da bu ümid kəsildi. "Suda boğulan saman çöpünə də əl atar", zərb məsəlində deyildiyi kimi, ermənilərin, xüsusən də bu ölkənin baş nazirinin indi nəyə gəldi əl atması anlaşılandır və məhz elə KTMT-yə üz tutması, gileylənməsi də bu aspektdə yaxşı başa düşülür.

Görünür Rusiya Prezidenti Vladimir Putinin mövqeyindən bərk incik düşən Ermənistan baş naziri Paşinyan şikayətlənmək qərarına gəlib və hədəf olaraq da KTMT-ni seçib. Əlbəttə ki, Rusiyaya, bu ölkənin Prezidentinə qarşı Paşinyanın səsini belə çıxarmağa cürətinin çatmadığı səbəbindən günahkar axtarışları da diqqətdən yayına bilməz. Məhz belə bir qorxaq durumda olan erməni baş nazir Kollektiv Təhlükəsizlik Müqaviləsinin imzalanmasının 30 illiyinə və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) yaradılmasının 20 illiyinə həsr olunan sammitdə gileylənmək qərarına gəlib və bu zaman şikayət xarakterli bəyanatla çıxış edib. Paşinyan ötən illər ərzində yaranmış müəyyən problemlərlə bağlı Ermənistanın KTMT-yə müraciətlərinin heç bir nəticə vermədiyini dilə gətirib bildirib ki, Ermənistan bu qurumdan gözlədiyi reaksiyanı belə heç kim müşahidə etməyib.

Əslində, həqiqətən də Ermənistan tərəfi dəfələrlə KTMT-dən yardım umub və sonra ermənilər bunu etiraf etməkdən boyun qaçırsalar da indi Paşinyanın sözləri bunu birbaşa təsdiqləyir. Xatırladığımız kimi, 44 günlük müharibə zamanı Azərbaycan Ordusu qarşısında tab gətirə bilməyən Ermənistan tərəfi dərhal KTMT-yə yalvarmağa başlamışdı ki, yardım alsın və bu yardımı almadığı da yadımızdadır. Məsələ burasındadır ki, bu ölkə hakimiyyəti, eləcə də Nikol Paşinyanın özü utanmadan təmsil olunduğu xalqa, bir növ də bütün dünyaya səs salmışdı ki, guya onlara böhtan atılır və belə bir şey nə olmayıb, nə də olası da deyilmiş. Belə olan halda indi həmin o Paşinyan niyə KTMT-dən gileygüzar edir? Soruşmaq ayıb olmasın, KTMT-yə müraciət etməmişdilərsə, indi niyə bu qurumun onlara yardım etməməsindən incik düşüblər? Təbii ki, erməni yalanlarına təkcə biz yox, bütövlükdə bütün dünya ictimaiyyəti bələddir və Nikolun sözlərinə kimsənin məhəl qoyması da mümkünsüzdür. Artıq hər kəsə bəllidir ki, başda elə baş nazirlərinin özü olmaqla, ermənilər yalan danışmaqda qətiyyən çətinlik çəkmirlər, zərrə qədər utanmırlar və böhtan atmaq, öz günahlarını kimlərinsə böynuna atmaq onlar üçün ənənə halını alıb.

Təkcə 44 günlük müharibə zamanı deyil, sən demə müharibə bitdikdən sonra da Nikol Paşinyanın işi-peşəsi KTMT-nin qapısını döymək, yardım diləmək, yalvarmaq olubmuş. Əbəs yerə deyil ki, indi o, sammitdə guya ötən il Azərbaycan hərbçilərinin Ermənistan sərhədini pozması ilə bağlı iddialar irəli sürərək KTMT-ni bu məsələyə münasibətdə səssiz qalmaqda günahlandırır. Əvvəla, ermənilərin, xüsusilə də Paşinyanın özünün bu və əvvəlki fikirləri bir-birini təkzib edir və təsdiq edir ki, bu təşkilatdan kömək üçün yalvarışları saysız hesabsız olub və indi küskünlüyü də bu səbəbdəndir. Digər tərəfdən, yenə də erməni yalanı və riyakarlığı özünü biruzə verir, çünki Azərbaycan həmin vaxt beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa edirdi və Paşinyanın iddiaları, eləcə də cəhdləri bu baxımdan artıq çoxdan fiaskoya uğrayıb. İndi tamamilə gücsüzlüyünün, hətta acizliyinin fərqində olan Paşinyanın bu anda səsləndirdiyi "giley-güzar", eləcə də KTMT-ni ona aid olmayan işlərə qarışmağa sövq etməsi ilə bağlı Ermənistanın çağırışları məsələni siyasiləşdirmək cəhdidir.

Ermənistanın baş nazirinin ən son həyasızlığı isə "Ermənistana dost olmayan ölkəyə" silah satmaqda KTMT-yə üzv olan ölkələri ittiham etməsi ilə özünü bir daha biruzə verib. Hətta o bildirib ki, 44 günlük müharibədə KTMT-nin ermənilərin uydurduqları məsələyə qarışmaması, Azərbaycanın haqlı tələblərinə, müqəddəs amal, torpaqlarının işğaldan azad edilməsi, ərazi bütövlüyünün təmin edilməsi uğrunda mübarizəyə dəstək verməsi təkcə onun özünü deyil, bütövlükdə erməni xalqını qəzəbləndirib. Maraqlıdır, indi də KTMT-ni özlərinə qoşmaq isyəti də baş qaldırıb, amma şikayət və inciklikərə, haqsız mənafelərinə mövqe bildirilməməsi onları hiddətləndirib.

Ölkəmizin, Azərbaycan tərəfinin aldığı silahlara da münasibət bildirib erməni baş nazir və utanmadan bunu pisləməyə çalışıb. Məsələ burasındadır ki, Azərbaycan silahsursatı, hərbi texnikanı təkcə Rusiya və Belorusdan almayıb, dünyanın bir sıra dövlətləri ilə ölkəmiz əməkdaşlıq edib, hansıki bu barədə Ali Baş Komandan, cənab Prezident İlham Əliyev dəfələrlə bəyan edib. Bunun fönunda yenidən bir daha bu məsələni masaya daşımaq üçün üz tapmaq, sonra da həmin masanın sahiblərinə irad tutub onları ittiham etmək yalnız erməni simasızlığı üçün xarakterik olub və bunun da axırının nə və necə bitəcəyi də hələ tam olaraq bəlli deyil. Azərbaycan silahları xaricdən pulla alır. Ölkəmiz bu sahədə bir çox ölkələrlə əməkdaşlıq edir və bu halda erməni baş nazirinin ittihamları da özləri kimi çox mənasızdır. Çünki, ermənilərə, Ermənistana silahlar pulsuz verilib və bunun fonunda hələ müttəfiqlərinə belə ittiham səsləndirməyə olmayan üzlərində üz tapa bilirlər.

Ermənistandan fərqli olaraq, məhz yalnız Ermənistan özü istisna olmaqla Azərbaycan KTMT-yə üzv ölkələrin hamısı ilə səmərəli əməkdaşlıq qurub və Rusiya ilə hərbi-siyasi əməkdaşlığın səviyyəsinin artırılması istiqamətində bir sıra addımlar atılıb. Ona görə də 44 günlük müharibədə Azərbaycanın öz suveren ərazilərində apardığı müharibəyə Ermənistanın digər ölkələri, xüsusilə də KTMT-ni cəlb etmək cəhdləri beynəlxalq hüquq baxımından da yolverilməz sayılırdı. İndi Paşinyanın "giley-güzarı" təsdiq edir ki, təkcə erməni baş nazir Paşinyan yox, görünür bütpvlükdə Ermənistan tərəfi, rəsmi İrəvan hələ də bu reallığı anlamır, ya da anlamaq istəmir.

Təbii ki, Ermənistan rəhbərliyinin KTMT-yə müraciətləri, qaldırdığı əsassız hay-küy həmişə olduğu kimi, yenə də onların acizliyini, qorxaqlığını və riyakar olduqlarını isbatlayır. Azərbaycan Ordusu işğaldan azad etdiyi ərazilərdə vəziyyətə tam nəzarət edir. Azərbaycan öz ərazilərinə nəzarət edir və bu baxımdan Ermənistan hakimiyyətinin çağırışlarına KTMT-nin cavab verməməsi tamamilə haqlı addım sayılıb və yenə də haqlı addım olaraq qəbul edilir. KTMT də yaxşı qəbul edir ki, müharibəyə qədər Ermənistan hakimiyyəti bütün beynəlxalq davranış qaydalarını pozurdu və hətta bu ölkədə KTMT-nin baş katibi belə həbs edilmişdi, bir il ərzində KTMT-yə rəhbər nəzərdə tutulan şəxsin namizədliyinə də veto qoyulmuşdi. Maraqlıdır, bütün bunların müqabilində Ermənistan hansı üzlə kömək almaq istəyirdi bu təşkilatdan? Bu simasızlıqları ikrah doğurmazdımı və indi KTMT Ermənistana niyə yardım etməlidir?

Artıq Ermənistanda KTMT-yə münasibət dəyişib və ermənilər tez-tez ölkənin bu təşkilatdan çıxması haqqında müzakirələrə belə qoşulurlar. Müzakirələrin məğzinin nifrət ruhuna kökləndiyi də göz önündədir və qəti şəkildə gilədilə bilməz. Bu eyni zamanda ondan xəbər verir ki, bütövlükdə erməni cəmiyyətinin KTMT ilə bağlı arzuları puç olub, istəkləri də ürəyində qalıb. Artıq ermənilər bu qənaətdədirlər ki, KTMT Ermənistanın təhlükəsizliyinə təminat verməz və buna maraqlı da deyil. Həm də ermənilər Azərbaycanın həmin təşkilatda da nüfuzunu yaxşıca görürlər və bunu da həzm edə bilmirlər. Bu isə təşkilatın günahı deyil, birbaşa ermənilərin özlərinin bu zamana qədərki, həmçinin hazırkı günahlarının, səhvlərinin, qanunsuzluqlarının təzahürüdür. Bu aura, bu atmosfer KTMT ilə bağlı puç olan erməni arzularıdır.

***İnam Hacıyev***



# "Müstəqilliyimiz əbədidir, sarsılmazdır, dönməzdir"

**Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının təşkilatçılığı ilə YAP Yenicə kənd ərazi partiya təşkilatında "Müstəqlliyimiz əbədidir, sarsılmazdır, dönməzdir" mövzusunda tədbir keçirilib. Tədbirdən öncə Yenicə kəndindən olan şəhidlərin abidə kompleksi ziyarət olunub, kompleks önünə gül dəstələri düzülüb.**





Tədbiri YAP Ağdaş rayon təşkilatının məsul əməkdaşı Pərviz Əhmədov açaraq iştirakçılara mövzuya dair ümumi məlumat verdi və Azərbaycanın müstəqillik tarixindən danışdı. Tədbirdə çıxış edən YAP Ağdaş rayon təşkilatının məsul əməkdaşı Anar Şahmuradov Azərbaycanın müstəqilliyini qazandığı ilk illərdə üzləşdiyi problemlərdən danışdı və həmin dövrdə səriştəsiz, naşı rəhbərlər üzündən ölkənin parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığına diqqət çəkdi. AXC-Müsavat hakimiyyətinin xəyanəti nəticəsində torpaqlarımız işğal olundu, ölkə olmazın problemlərlə üz-üzə qaldı. Anar Şahmuradov qeyd etdi ki, xalqın təkidli tələbi ilə Bakıya qayıdan ulu öndər Heydər Əliyev qısa zamanda ölkədə daxili sabitliyi təmin etdi və ictimai-siyasi həyatı öz normal axarına qaytardı. Ulu Öndər Heydər Əliyev xalqı və ölkəni parçalanmaq təhlükəsindən xilas edərək müstəqilliyimizi qoruyub saxladı. Bu gün ulu öndər Heydər Əliyevin siyasi kursu ölkəmizdə Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və Azərbaycan davamlı olaraq inkişaf edir. Öz ərazi bütövlüyünü təmin edən Azərbaycan artıq Cənubi Qafqazın lider dövləti olaraq dünyada yüksək nüfuz sahibinə çevrilmişdir. Ölkə başçısının həyata keçirdiyi düşünülmüş uğurlu siyasət nəticəsində Azərbaycan davamlı uğurlara imza atır. Müstəqil Azərbaycan dövlətinin milli maraqları yürüdülən siyasətin mərkəzində dayanır və ölkənin gələcək inkişafı naminə misilsiz işlər görülür.

Tədbirdə çıxış edən partiya fəalları cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili-xarici siyasətdən məmnunluqla danışaraq, müstəqil Azərbaycanın firavan gələcəyi naminə öz vətəndaşlıq vəzifələrini layiqincə yerinə yetirəcəklərini qeyd etdilər.

# YAP Bərdə rayon təşkilatının fəalları Bərdə Tarix-Diyarşünaslıq Muzeyində olublar

**18 May Muzeylər Günü ilə əlaqədar olaraq YAP Bərdə rayon təşkilatının fəalları qazi və şəhid ailələri ilə birlikdə Bərdə Tarix və Diyarşünaslıq Muzeyində olmuşlar. 2009-cu ildə açılışında ölkə Prezidenti cənab İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın iştirak etdiyi rayon Tarix Diyarşünaslıq Muzeyinin eksponatlarının hər zaman artırılmasını diqqət mərkəzində saxlayan muzeyin əməkdaşlarının işi təqdir olundu. Xüsusilə, Vətən müharibəsi dövrünün şəhidlərinin geyim və başqa əşyalarının eksponat kimi xüsusi bir guşədə yer alması ziyarətçilərin rəğbətinə səbəb oldu.**





Muzeydə YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya çıxış edərək muzeyin kollektivini bu bayram münasibətilə təbrik etmiş, milli mənəvi və tarixi dəyərlərimizin qorunub yaşadılmasında Muzeylərin əhəmiyyətindən danışmış, 500 il paytaxt şəhər olmuş Bərdənin qədim abidələrinin ayrıca bir muzey olduğunu xüsusi vurğulamışdır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində şəhidlərimizin qanı-canı bahasına işğaldan azad etdikləri qədim torpaqlarımızın erməni vandalları tərəfindən dağıdılması nəticəsində necə viran qoyduqlarını diqqətə çatdırmışdır. Muzeyin direktoru Mehriban Əliyeva və əməkdaşı Könül Əliyeva çıxış edərək Muzeylər gününün tariximizin qədimliyinin və zənginliyinin bir daha xatırlanması nöqteyi nəzərindən böyük əhəmiyyətə malik olduğunu önə çəkmişdir."Azərbaycan Bayrağı" ordenli şəhid Xudayar Yusifzadənin anası Radə Qurbanova şəhidlər üçün guşə yaratdıqlarına görə şəhid ailələri adından Muzeyin əməkdaşlarına təşəkkür etmişdir. Sonda YAP Bərdə rayon təşkilatı fəalları və şəhid ailələri Muzeyin kollektivi ilə birlikdə xatirə şəkli çəkdirmişlər.

# "28 may-tariximizin ən şanlı və ən parlaq səhifələrindəndir"

**19 may 2022-ci il tarixdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında Dövlət Müstəqilliyi Günü münasibəti ilə "28 may-tariximizin ən şanlı və ən parlaq səhifələrindəndir" mövzusunda fəal qadınlarla tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açmış, Ulu öndər Heydər Əliyevin eləcə də Vətən müharibəsində şəhid olanların əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir.**

Seyfəddin Əliyev Dövlət Müstəqilliyi Günü münasibəti ilə tədbir iştirakçılarını təbrik etmiş, 15 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanunu" haqda ətraflı məlumat vermişdir.

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev 28 May tarixini Azərbaycan xalqının milli kimliyini tapdığı gün kimi qiymətləndirib. Cümhuriyyət yaranana kimi xalqımızın keçdiyi tarixi yoldan danışan rayon təşkilatının sədri Azərbaycanın olduqca mürəkkəb şəraitdə öz müstəqilliyini elan etməsinin böyük cəsarət tələb etdiyini vurğulayıb. Yenidən müstəqilliyə qovuşduqdan sonra ölkəmizin ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçdiyini bildirən Seyfəddin Əliyev hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.



Nitqinə davam edən Seyfəddin Əliyev Azərbaycanın Xalq Cümhuriyyətinin fəaliyyətindən danışıb. Müsəlman Şərqində ilk demokratik respublika olan AXC-nin ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxdığını deyən natiq bu dövlətin cəmi 23 ay yaşamasına baxmayaraq böyük işlər gördüyünü qeyd edib.

Seyfəddin Əliyev çıxışını davam etdirərək qeyd etdi ki, 15 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən Mayın 28-i Müstəqillik Günü, Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilmişdir.

Seyfəddin Əliyev müstəqilliyimizin qorunub saxlanmasında əvəzsiz rolu olan, Azərbaycanın gündən-günə güclənən siyasi və iqtisadi potensialının formalaşmasının əsasını qoyan ulu öndər Heydər Əliyevin xidmətlərini xüsusi vurğulayıb. Məhz Heydər Əliyevin yürütdüyü məqsədyönlü və uzaqgörən siyasət nəticəsində bu gün də Azərbaycanın öz müstəqilliyini qoruyub saxladığını və beynəlxalq arenada müstəqil bir dövlət kimi öz sözünü deməyi bacardığını, həmin siyasətin Prezident İlham Əliyev tərəfindən layiqincə davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycanın regionda iqtisadi və siyasi cəhətdən lider dövlətə çevrildiyini qeyd edib. Seyfəddin Əliyev hal-hazırda Azərbaycanın heç vaxt olmadığı qədər güclü olduğunu qeyd edərək hər bir vətəndaşın Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyini vurğulayıb.

Tədbirdə Viləş uşaq bağçası, körpələr evi ərazi partiya təşkilatının sədri Şəfa Allahverdiyeva, Şəhər 3 saylı məktəb ərazi partiya təşkilatının sədri Nailə Əsədullayeva, Dəfinə lisey ərazi partiya təşkilatının sədr müavini Jalə Mürşüdova, fəal qadınlardan Mətanət Paşayeva, Aynur Qardaşova, Natavan Əliyeva və başqaları müstəqillik yolunda xalqımızın çoxillik mübarizə tarixindən, müstəqilliyin bərpasında və onun qorunmasında ümummilli liderimizin xidmətlərindən, bu siyasi kursun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıblar.

***Rəfiqə***

ŞƏRH+AKTUAL

# Ermənistan hansı razılaşmaları pozur?

**Məlum olduğu kimi, 44 günlük müharibədən sonra Rusiyanın və Avropa İttifaqının vasitəçilikləri ilə Azərbaycan və Ermənistan rəhbərlərinin bir neçə dəfə görüşləri keçirilib. O da bəllidir ki, həmin görüşlərdə bəyanatlar, razılaşma sənədləri qəbul olunub və Azərbaycan üzərinə düşən bütün öhdəlikləri yerinə yetirib.**



Lakin Ermənistan haqqında bunu demək ümumiyyətlə qeyri-mümkündür. Bu baxımdan, Ermənistan ciddi səhvlərə yol verməsi ilə qəbul olunmuş prinsipləri pozur. Bəs bu prinsiplər hansılardır?

SİA Ermənistanın danışıqların pozulmasına gətirib-çıxaran demarşlarının siyahısını təqdim edir:

∗ Ermənistan 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli razılaşmanın 4-cü bəndini pozur. Həmin bəndə əsasən, Ermənistan Qarabağda qalmış silahlı qüvvələrinin qalıqlarını bu ərazilərdən çıxarmalı idi.

∗ Ermənistan kommunikasiyaların blokadadan çıxarılmasına dair 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatın 4 bəndinin (1 mart 2021-ci il) icrası üçün müəyyən edilmiş tarixdən yayınıb.

∗ Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 9-cu bəndinin icrasını pozaraq, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz rabitəyə zəmanət verməkdən imtina edir.

∗ Ermənistan Qarabağda öldürülmüş azərbaycanlıların kütləvi məzarlıqlarının koordinatlarını vermir, 1990-cı illərin əvvəllərində Birinci Qarabağ müharibəsi zamanı əsir götürülmüş minlərlə azərbaycanlının taleyi ilə bağlı məlumat verməkdən imtina edir.

∗ Ermənistan bu ölkədəki Azərbaycan mədəni irsinin vəziyyətinin monitorinqinə razılıq verməməklə YUNESKO-nun fəaliyyətini sabotaj edir.

∗ Ermənistan Zəngəzur dəhlizi boyu yolun koordinatlarını vermir (baxmayaraq ki, ötən il yolun çəkilişinə razılıq verildiyi barədə bəyanat var idi) və dəmir yolunun tikintisinə başlamır.

∗ Ermənistan aprel ayında Brüsseldə Şarl Mişelin iştirakı ilə keçirilmiş görüşdəki bəyanatı pozur. Həmin bəyanatda sərhəddə birgə komissiyaların işləməsi ilə bağlı qəbul edilmiş razılaşma əldə olunmuşdu.

∗ Ermənistan daha əvvəl Azərbaycanın irəli sürdüyü 5 prinsipi qəbul etdiyini bildirib və bunun ardınca isə "6 prinsipi" və "status" mövzusunu qabartmaqla Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyəcəyini nümayiş etdirir. Yeri gəlmişkən, Prezident İlham Əliyev bəyan edib ki, Ermənistan artıq iki dəfə (!) sərhədlərdə komissiyaların işləməsi ilə bağlı irəli sürdükləri öz təkliflərindən geri çəkiliblər. Bu isə Ermənistan üçün yaxın gələcəkdə yaxşı heç nə vəd etmir...

*Rövşən RƏSULOV*

# "İstənilən təxribatın qarşısını Azərbaycan polisi qətiyyətlə alacaq"

"Bakının Səbail rayonunun "Fəvarələr Meydanı"nda feministlər və onların dostları olan bəzi "facebook" fəalları birlikdə icazəsiz aksiya təşkil etməyə cəhd göstərmişdir. Əslində, hər bir ölkə vətəndaşının etiraz etmək və sərbəst toplaşmaq hüququ var, ancaq əlbəttə ki, qanun və qayda ilə". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Ramiz Alıyev bildirib.




Ramiz Alıyev təəssüflə deyib ki, ölkəmizdə fəaliyyət göstərən bəzi feminist komandasının nümayəndələri və onların dostları olan bəzi "facebook" fəalları icazəsiz bu aksiyanı keçirməyə cəhd etməklə hüquq-mühafizə orqanlarının əməkdaşlarını təxribata sürükləmək istəyiblər: "Maraqlı məsələlərdən biri də odur ki, aksiya təşkilatçıları sanki hazırda Ermənistanda baş verən aksiyaların davamını burada etmək niyyətində idilər. Qəribədir ki, erməni müxalifəti öz dövlətini müharibədə məğlub olmaqda ittiham edərək və ona əsaslanaraq aksiyalar keçirdir və hazırki Ermənistan dövlətini istefaya səsləyirlər, bizim ölkə qalibdir və bu cür aksiyaların keçirilməsinə səbəb yoxdur.

Biz hazırda xalq olaraq öz qalibiyyətimizi dünyaya nümayiş etdirməliyik və onun təbliğatı ilə məşğul olmalıyıq. Bunu özünü azərbaycanlı sayan hər bir vətəndaşımızın etməli olduğunu düşünürəm. Təxribatla məşğul olub, ölkəmizin imicinə zərər vurmağa cəhd göstərənlər isə hesab edirəm ki, dövlətimizin qalibiyyətini həzm edə bilməyən dairələrin sifarişlərini yerinə yetirən, onların alətinə çevrilən bir qurub vətən xainidir!

Əslində, Ermənistanda baş verən aksiyaların da əsil səbəbini və kimlər tərəfindən idarə olmunmasını, sifarişlərin hansı dairələrdən gəlməsini çox gözəl bilirik. Eyni ssenarini ölkəmizdə tətbiq etmək istəyən dairələr və onların ölkəmizdə olan əlaltıları bu cür aksiyalar keçirtməklə ölkələrdə qarışıqlıq yaratmaq niyyətindədir. Aksiya zamanı dövlətimizə və onun hüquq-mühafizə orqanlarına qarşı səsləndirilən təhqirlər dolu şuarlar isə həmin aksiyada olan feminist və onların dostlarına uyğun ifadələr idi".

Politoloq hesab edir ki, bu cür aksiyanın təşkili olunması və aksiya iştirakçılarının məhz feministlərdən və onları arxasına alaraq hay-küy salan "Facebook" fəallarından ibarət olması, artıq onların sifarişi haradan almasını göstərir: "Bir məqamı da diqqətə çatdırmaq istəyirəm ki, kimliyindən asılı olmayaraq, hər kəs anlamalıdır ki, hansı dairələrdən sifarişlər alırlar alsınlar, nə ölkəmizin qalibiyyətinə ləkə vura biləcəklər, nə də xalq-dövlət birliyinə əngəl ola biləcəklər! Dövlətimizə qarşı yönəlmiş istənilən təxribatın qarşısını polisin qətiyyətlə alacağından heç kimin şübhəsi olmasın!"

*Arzu Qurbanzadə*

# FHN-dən əhaliyə xəbərdarlıq: güclü külək əsəcək

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, dünən axşamdan başlayaraq mayın 21-dək ölkə ərazisində hava şəraitinin yağıntılı keçəcəyi, yağışın ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi, ayrı-ayrı yerlərdə güclü külək əsəcəyi proqnozlaşdırılır.**



FHN-dən SİA-ya verilən məlumata görə, Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, gözlənilən hava şəraiti ilə əlaqədar müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırır.

Belə ki, gözlənilən güclü küləklə əlaqədar yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Həmçinin, güclü küləyin baş verən yanğınların söndürülməsi zamanı yaratdığı çətinlikləri nəzərə alaraq, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir.

Bundan əlavə, intensiv yağıntıların səbəb ola biləcəyi daşqın və seldən qorunmaq üçün daşqın və sel təhlükəli ərazilərdən uzaq durmaq, bu təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmaq tövsiyə olunur.

Həmçinin, ildırımla bağlı təhlükələrdən qorunmaq üçün elektrik cihazlarını şəbəkədən ayırmaq, telefonla (sabit şəbəkə, mobil, taksofon və s.) danışmamaq, açıq havada olarkən elektrik xətti, ildırım ötürücüsü, navalça və antenaya yaxınlaşmamaq, hündür ağacların altında daldalanmamaq və bu məqsədlə nisbətən çökək yer seçmək, avtomobildə olduqda isə hərəkəti dayandıraraq şüşələri qaldırıb ildırımın bitməsini gözləmək tövsiyə edilir.



# Əlilliyin qiymətləndirilməsi qaydasında dəyişiklik edilib

"Əlilliyin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi və "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 36 nömrəli Qərarında dəyişiklik edillib. Nazirlər Kabinetindən SİA-ya verilən məlumata görə, sənədə aşağıdakı məzmunda 1.8-1.12-ci və 1.14-cü bəndlər əlavə edilir:

1.9. Orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlillik müəyyən edilmir, 30 faizdən artıq pozulması hallarında isə 31-60 faizədək, 61-80 faizədək və 81-100 faizədək qiymətləndirilməklə əlillik müəyyən edilir.

1.10. Orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri 31-35-dək olduqda 35 faiz müəyyən edilir. Orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri üzrə qiymətləndirilməsi 5 faiz aralığı ilə aparılır.

1.11. Anadangəlmə xəstəlikdən və ya çatışmazlıqdan, yaxud sonradan qazanılmış xəstəlikdən və ya zədədən, habelə sonradan qazanılmış xəstəlik və ya zədə ilə bağlı çatışmazlıqdan irəli gələn orqanizmin funksiyalarının pozulmasının əlilliyin müəyyən edilməsinə əsas verən bir neçə halı olduqda, hər bir hal ayrılıqda qiymətləndirilir və orqanizmin funksiyalarının pozulması faizi müəyyənləşdirilir. Bu zaman orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri eyni olduqda, yekun göstərici 10 faiz artırılmaqla, fərqli olduqda ən yüksək olan göstərici 10 faiz artırılmaqla, ümumilikdə isə 100 faizdən çox olmamaqla müəyyən edilir. Hər hansı bir hal üzrə müddətsiz əlillik müəyyən edilməsinə əsas olduqda, əlillik müddətsiz müəyyən edilir.

1.12. 15 yaşınadək şəxslərdə əmək fəaliyyəti bacarığı dəyərləndirilmir.

1.14. Peşə xəstəliyi və istehsalat zədəsi istisna olmaqla, əlilliyin müəyyən edilməsinə əsas verən bir neçə hal üzrə orqanizmin funksiyalarının pozulmasının fərqli faizləri müəyyənləşdirildiyi hallarda, daha üstün sosial müdafiə təminatları nəzərdə tutulan əlillik səbəbi və orqanizmin funksiyalarının pozulmasının ən yüksək faizi müəyyən edilir.";

Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

# Ac qalanlar və ac saxlananlar-1 milyardla 1 milyardın fərqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

**Ramazan ayında dünyada təxminən 1 milyard adam oruc saxlayır. Bütün dinlərdə orucluğun əsas şərtlərdən biri kimi qoyulması heç də təsadüfi deyil. Orucluq, həm mənəvi, həm fiziki mahiyyətə malikdir. Belə ki, orucluq vasitəsilə həm toxun acdan xəbəri olur, həm də oruc tutanların fiziki sağlamlığı bərpa olunur. Orucluq israfçılığa yol verməməyə, az yeməyə, sağlamlığı qorumağa, başqaları ilə paylaşmağa, acların, yoxsulların vəziyyətini həqiqətən dərk etməyə səbəb olan bir sistemdir.**



Lakin dünyamızda məcburi aclıq keçirən daha 1 milyard adam var. Onlardan 300 milyona yaxını uşaqlardır. Bir uşağın acından ölməməsi üçün ayda 30 dollar tələb olunduğu dünyada trilyonlarla dollar vəsait mənasız və faydasız işlərə xərclənir. mİsal üçün dünyanın hərbi büdcəsi 1,5 trilyondan çoxdur ki bunun da yarısı ABŞ-ın payına düşür.

Təxmini hesablamalara görə, dünyada hər il 50 000 insan kəskin aclıq nəticəsində ölür. Qlobal yoxsulluğa dair göstəricilərə əsasən ifrat yoxsulluqdan hər gün dünyada 30 000 uşaq vəfat edir, 11 milyon uşaq isə 5 yaşı tamam olmadan dünyasını dəyişir.

Dünyada varlı və kasıb dövlətlər, eləcə də insanlar arasında fərq kəskin surətdə artır və ildən-ilə böyüyür. 1960-cı ildə dünyanın zəngin dövlətlərinin 20%-nin gəlirləri ilə yoxsul ölkələrin 20%-nin gəlirləri arasındakı fərq 30-un 1-ə nisbətində olduğu halda, 1990-cı ildə bu fərq 60-ın 1-ə, 1997-ci ildə isə 70-in 1-ə nisbətində olub.



Statistikadan göründüyü kimi, dünyada gəlir bölgüsündəki disproporsional həddə zəngin ölkələrin imkanlarını genişləndirməkdə və yoxsul ölkələri isə təhdid etməkdədir. BMT statistikalarına və Əhali Fondunun hesabatlarına görə, dünyada 1 milyarda yaxın adam əla vəziyyətdə yaşayır- 1 milyarda yaxın insanın aclıqdan ölmək üzrə olduğu dünyada. Dünya nemətlərinin 80 faizlik böyük hissəsini cəmi 20 faiz əhali istehlak edir, qalan 80 faiz əhali isə cəmi 20 faizi ilə dolanır. Belə olan halda dünyada normal insan cəmiyyətindən danışmağa dəyərmi? Əlbəttə, xeyr. Biz sosial cəhətdən qoprxunc bir dünyada yaşayırıq.



Hazırda dünyada istehsal edilən ərzaq məhsulları təxmini hesablamalara görə, 15 milyard adama kifayət edəcək həddədir. Əlbətə, normal istifadə şəraitində. Lakin qeyri-bərabər bölünmə və hədsiz israfçılıq 1 milyarda yaxın adamın ac qalmasına səbəb olur. Hesablamalara görə, təkcə Amerika və Britaniyada zibilliyə atılan qidalarla 1 milyarda yaxın adamı doydurmaq olar.

BMT-nin alimlər qrupunun hesabatında qeyd olunur ki, təbii ehtiyatlardan səmərəli istifadə olunacağı halda Yer kürəsi indikindən dəfələrlə çox insanı yedirdə bilər. Onlar bu rəqəmin 50-60 milyard olduğunu bildirirlər. Yoxsulluq coğrafiyasına diqqət yetirdikdə belə bir məqam nəzərə çarpır: bu ölkələr ya kənd təsərrüfatı, ya da hasilat sənayesi üzrə ixtisaslaşıblar və müasir texnologiyalar əldə etməyə çətinlik çəkirlər.

Müasir texnologiyalı dövlətlər istənilən halda bu texnologiyanın başqa ölkəyə verilməsində maraqlı olmur. Tez-tez eşidirik ki, dünyanın iri dövlətləri kasıb ölkələrə kredit verir. Kreditlərin strukturuna baxanda görürük ki, bu kreditlər əsasən müəyyən əmtəələrin alınmasına verilir. Bu əmtəələr də kredit verən iri dövlətlərdə istehsal olunur. Bir sözlə onların verdikləri pullar faizlə birlikdə özlərinə qayıdır. Faktiki olaraq özləri öz şirkətlərinə vəsait verərək dövlət sifarişlərini həyata keçirirlər.

Yəni, bu gün imperialist dövlətlər və onların transmilli şirkətləri 3-cü dünya ölkələrinin sərvətlərini çoxsaylı vasitələrlə amansızcasına talamaqla məşğuldurlar. Bu ölkələrdəki aclığın, yoxsulluğun yeganə səbəbi budur. Öz sərvətlərini onlara verməməkdə israr edən ölkəni Liviyanın, Suriyanın taleyi gözləyir.

Lakin bu halda belə varlı dövlətlərdə yoxsulluq ləğv olmur. Məsələn, təkcə hərbi büdcəsi 700 milyard dollar təşkil edən Amerikada rəsmi olaraq 35-40 milyon civarında yoxsul var. Bu əhalinin 12 faizini təşkil edir. Maliyyə gəlirləri yüksək olan digər ölkələrdə də vəziyyət təxminən belədir.



Dünyadakı problemlərin həlli üçün yaradılmış, lakin proseslərə heç bir müdaxilə imkanı olmayan BMT dünya dövlətlərini qlobal problemləri həll etmək ətrafında cəmləyə bilmir. BMT təşkilatları müxtəlif hesabatlar hazırlayır, statistikalar yayır, dünya liderlərini nəyəsə çağırır... lakin bu sadəcə ağsaqqalar məclisi formasına çevrilmiş bir təşkilat olduğundan heç bir təzyiq, tələb, təsir imkanı yoxdur.

Qlobal şeytani qüvvələr, dünya ölkələrində siyasi, iqtisadi, sosial, mənəvi problemlərin artmasında, hərbi münaqişələrin, xaosun, qarşıdurmaların baş verməsində katalizator rolunu oynayırlar. Ölkələri, xalqları, dini icmaları bir-birinə qarşı qoyub qanlı qarşıdurmalar törədirlər. Bunun qarşısını almaq getdikcə daha da çətinləşir. Çünki qlobal qüvvələr bu istiqamətdə birləşib və onlara qarşı çıxmaq üçün heç bir ölkənin təkbaşına gücü çatmır. Bu ölkələrə birləşməyə heç imkan da vermirlər. Bax, dünyamız belə bir dəhşətli şeytani tora salınıb, heç cür də çıxa bilmir.

Dünya maliyyə, bank, birja sisteminin, transmilli korporasiyaların, elmi-texnoloji mərkəzlərin sahibləri dünyanı öz əllərində saxlayıb idarə etmək üçün hər oyundan çıxırlar- insanlığa, təbiətə qarşı bioloji terrordan tutmuş psixotron terroradək hər cür təcavüz edilir. Əgər istəsələr dünyada hamıya hər şey çatar. Amma ”hamıya hər şey çatmır” deyib, hamının sayını azaltmaq istəklərini açıq-aşkar deyilər. Virus terrorundan sonra, aclıq, qıtlıq terroruna start verilib. Müharibələrin isə ardı-arası kəsilmir.

Dünya təbiəti gözümüzün qabağında məhv edirlər, dünya meşələrini yandırdılar, atmosferi çirkləndirdilər, torpağı zəhərlədilər, suyu murdarladılar. Resurslar vəhişəcinə istismar olunur. Xəstəliklər baş alıb gedir. Bitkilərin genlərini belə dəyişdirdilər. Təbiət bu terrora çox sərt reaksiya verir. İqlim dəyişmələri, təbii fəlakətlər ara vermir. Dünyanın nüfuzlu ekoloq alimləri tezliklə böyük kataklizmaların başlayacağını proqnoz edirlər.

Dünyamızı xilas etmək üçün demək olar ki, son imkanlar da itirilib, əksər alimlər artıq geri dönüşü olmayan bir prosesin başladığını deyirlər. Lakin bu dünya liderlərinin vecinə də deyil. Hər dövlət öz hegemonluğunu genişləndirməyə, daha çox silahlanmağa, digər ölkələrin zəifləməsinə çalışır. Bunun axırı yaxşı qurtarmayacaq. Yeganə xilas yolu bütün bəşəriyyətin ağıllı olmasından keçir ki, bu da mümkün görünmür. Dünyamız isə göz qabağında məhv olur. Bunun qarşısını ala biləcək heç bir qüvvə üfüqdə belə görünmür. Hətta möcüzə baş verib belə bir qüvvə ortaya çıxsa belə, artıq demək olar ki gecdir.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
20 may
2022-ci il




# "Ayntraxt"
## UEFA Avropa Liqasının qalibi oldu

Mayın 18-də futbol üzrə UEFA Avropa Liqasında 2021/2022 mövsümünə yekun vurulub. Turnirin həlledici görüşündə Almaniyanın "Ayntraxt" və Şotlandiyanın "Reyncers" klubları üz-üzə gəlib.Sevilya şəhərindəki "Ramon Sançes Pisxuan" stadionunda oynanılan final görüşü "Ayntraxt" klubunun qələbəsi ilə yekunlaşıb - 1:1, pen. 6:5.

Oynanılan qarşılaşmanın əsas vaxtı 1:1 hesablı heç-heçə ilə başa çatıb. İlk qolu 57-ci dəqiqədə Qlazqo təmsilçisi vurub. Rəqib müdafiəçinin səhvindən yararlanan Co Aribo komandasını önə keçirib. Lakin "Reyncers"in üstünlüyü çox çəkməyib. 69-cu dəqiqədə Rafael Borre tarazlığı bərpa edib. Əlavə vaxtda hesab dəyişmədiyindən qalibi müəyyənləşdirmək üçün penalti zərbələrindən istifadə olunub. Burada daha dəqiq oynayan "Ayntraxt" Avropa Liqasının qalibi olub.

DİETOLOQ AÇIQLADI

# Azyaşlı uşaqlarda piylənməyə NƏ SƏBƏB OLUR?

**"Bir insana baxdığımız zaman onun artıq çəkili olduğu o an aydın olur. Çünki piy toxuması çox üstünlük təşkil edir. Əsas da uşaqlarda qarın bölgəsində və sinə bölgəsində piy toxuması toplanması artıq çəkinin olduğunu göstərir və bizim dəyərləndirməyimiz də belə olur ki, normalda hər bir uşaq pediatr, endokrinoloq və dietoloq tərəfindən təqib olunmalı, illik aldığı və verdiyi çəki və boy uzanmasına baxılmalıdır". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Sevinc Həsənzadə deyib.**



Onun sözlərinə görə, artıq çəki müxtəlif xəstəliklərə səbəb olur: "Bəzən valideynlər istəyir ki, uşağın çəkisi çox olsun, el dilində desək, "tompuş" olsun. Amma əslində bu, çox böyük bir metobolik və endokrin xəstəliklərə səbəb olur. Bunlardan ən öndə gələn boy qısalığı, cinsi zəiflik, cinsiyyət orqanının yaşa görə kiçik olması, vaxtından əvvəl şəkər xəstəliyinin, təzyiq xəstəliyinin erkən yaşda ortaya çıxmasıdır. Belə uşaqlarda müxtəlif metobolik xəstəliklər, istər dəri renginin qaralması, istər bədəndə insulin miqdarının artması, bunlar çox böyük problemlərə səbəb olur ki, bu zaman "qısır döngü" olur.



Necə olur? Uşaq deyək ki, yemək yeyir, insulinin miqdarı artır və nəticədə daha çox yemək istəyir. Yəni bir sözlə uşağın özündən asılı olmadan aşırı yemək istəyi yaranır və doyumsuzluq hissi olur".

Dietoloq sözlərinə davam edərək həmçinin qeyd edib ki, bir fakt isə uşağın ailəsində məsələn, ana və atasının çəkisi çoxdursa, uşaqların 80%-nin çəkisi çox olur və bu da uşaqların ömür boyu çəkisinin yüksək davam etməsinə və piylənmə xəstəliyindən əziyyət çəkməsinə gətirib çıxarır: "Digər faktor isə nəzarətsizlikdir. Məsələn, ailədə deyək ki, ata da çalışır, ana da çalışır. Uşağı evdə nəzarətsiz qoyub gedirlər. Uşaq özbaşına qalır. Nə istəyir edir, nə istəyir yeyir, nə istəyir içir. Bu nəzarətsizlik nəticəsində piylənmə xəstəliyi, yəni artıq çəki xəstəliyi ortaya çıxır.

Başqa bir faktor isə "fast food" yeyilməsidir. Bu, "fast food" məhsulları dediyimiz bağırsaqlardan sürətli sovrulan qızartma məhsullarıdır. Bağırsaqdan sürətli sovrulduğuna görə insulini bədəndə çox yüksəldir. Bu da artıq çəkiyə səbəb olur. Qazlı içkilərin içilməsi də artıq piylənməyə gətirib çıxarır. Qazlı içkilər mədə şirəsini artırdığına görə aclıq hissinə səbəb olur. Eyni zamanda, sümüklərin əriməsinə, sümük problemlərinə, çoxlu miqdarda şəkər qəbul etməyimizə səbəb olur. Bu qazlı içkilərin həyatımızdan çıxarılması lazımdır. Ondan başqa digər bir faktor isə üçüncü bir şəxsin ailədə uşağın yeməyinə qarışması, məsələn, daha çox nənə faktoru deyək. Çünki misal üçün deyək, ana, ata ciddi pəhriz elədi. Uşaq yemək yemədi, ona şokolad, və ya digər şəkərli şeylər verilmədi və ya meyvə suyu içilmədi. Amma uşaq çox rahatlıqla nənəsindən bunları istəyə bilir. Halbuki, bunlar çox yanlış davranışlardır və gələcəkdə artıq çəkiyə səbəb olur.

Piylənmənin digər bir səbəbi isə yemək yeyə-yeyə telefona və ya televiziyaya baxmaqdır. Bu da çox böyük faktordur, çünki televiziyaya baxan uşaq nə qədər yemək yediyini, nə yediyini, yeməyin müddətini unudur. Məsələn, ya sürətlə yeyir, çox yemək yeməsinə səbəb olur, ya da yemək miqdarı çox olur və ya deyək ki, iştahaçıcı bir film və ya cizgi film izlədi, orada yeməkdən danışılırsa və iştah açırsa, bu da uşağın çox yeməsinə səbəb olur. Bütün bu faktorlara diqqət etmək çox önəmlidir".

*Ləman Əlizadə*

Quduzluq xəstəliyinə yoluxmuş insan ilk olaraq

# NƏ ETMƏLİDİR?



**"Heyvanlar tərəfindən törədilən xəstəliklərin ən çox yayılmış halı dişləmələrdir. İnsanın vəhşi və ya ev heyvanı tərəfindən dişlənilməsinin nəticəsində baş verən hallar quduzluq xəstəliyidir". Bu sözləri SİA-ya açıqlamasında həkim Tariel Eyvazov bildirib. Onun sözlərinə görə, quduzluq xəstəliyi insana yalnız infeksiya, ağız suyu ilə keçir: "Yəni heyvanın dişləməsi, hətta dərinin zədələnmiş hissəsinə heyvanın ağız suyunun düşməsi ilə belə virusa yoluxmaq mümkündür.**

**Hazırda da bu problem çox geniş yayılıb. Statistik məlumata görə ildə 10 milyon adam quduzluq xəstəliyi ilə bağlı müraciət edir. 100 min ətrafında adam isə bu xəstəlikdən həyatını itirir. Bu virus 3 mərhələdə özünü göstərir.**

**İlkin olaraq əgər dişləmə halı baş veribsə, 5-7 gün sonra artıq halsızlıq, kefsizlik ola bilər. İkinci mərhələdə isə artıq daha güclü oyanmalar baş qaldırır. Ürəkbulanmalar, su gördükdə qorxmaq və s. kimi hallar baş qaldırır. Ümumiyyətlə tövsiyyə olunur ki, dişləmə hadisəsi baş verən kimi ilk olaraq yaxındakı tibb mərkəzinə yaxınlaşaraq antirabik vaksini vurulmalıdır. Adətən inkişaf etmiş ölkələrdə heyvanlar vaksinasiya olunur. Buna görə də quduzluq hallarına az rast gəlinir. Ölkəmizdə də ev heyvanları olan şəxslərə mütəmadi olaraq heyvanların vaksinasiya olunması tövsiyyə olunur. Ümumilikdə isə quduzluq olduca ağır bir xəstəlik hesab olunur".**

***Səbinə Hüseynli***

# Yasamalda
## evlərdən pul və qızıl oğurlayanlar tutulub

Yasamal Rayon Polis İdarəsinin 29-cu polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 16-dan 20-dək olan müddətdə rayon ərazisindəki bir evdən 1600 ABŞ dolları, 10 min manat dəyərində qızıl-zinət əşyaları, digər evdən isə 800 manat məbləğində pul və 233 manat dəyərində qızıl-zinət əşyası oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunan Zaur Şahverdizadə saxlanılıb.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı rayon polis idarəsi tərəfindən araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**